AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

28 APREL 2018-ci il ŞƏNBƏ № 94 (6127) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Azərbaycan Prezidenti İlham Əliyevin və Böyük Britaniyanın Baş naziri xanım Tereza Meyin görüşü







**Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey prezident seçkilərində qələbəsi münasibətilə İlham Əliyevi təbrik etdi. O, Prezident İlham Əliyevlə görüşməkdən məmnunluğunu ifadə edərək bildirdi ki, Azərbaycan Prezidentinin bu səfəri iqtisadi və ticarət, enerji, təhlükəsizlik məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacaq. Böyük Britaniyanın Baş naziri SOCAR ilə BP şirkəti arasında imzalanacaq sazişin əməkdaşlığın genişləndirilməsi baxımından önəmini vurğuladı. Tereza Mey Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirakına və verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirərək qeyd etdi ki, Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin gündəliyi çox genişdir və ölkələrimiz müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, ticarət, sərmayə qoyuluşu sahələrində fəal əməkdaşlıq həyata keçirir. Dövlətimizin başçısı bildirdi ki, hazırda ticarət əlaqələrinin genişləndirilməsi və şaxələndirilməsi istiqamətində fəal iş aparılır və bunun üçün böyük potensial var. Böyük Britaniyanın bir çox şirkətləri Azərbaycanda uzun illərdir ki, fəaliyyət göstərir, SOCAR-BP əməkdaşlığı strateji xarakter daşıyır.

İkitərəfli münasibətlərimizin tərəfdaşlıq əlaqələrinə əsaslandığını deyən dövlətimizin başçısı onun Böyük Britaniyaya səfərinin əməkdaşlığımızın genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Söhbət zamanı regional inkişaf və təhlükəsizlik məsələləri də müzakirə olundu.

Sonra Prezident İlham Əliyevin və Baş nazir Tereza Meyin iştirakı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR, "BP Exploration (Azerbaijan) Limited" şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv blokunun birgə kəşfiyyatı və işlənilməsi üzrə hasilatın pay bölgüsü haqqında saziş imzalandı.

Sənədi SOCAR-ın prezidenti Rövnəq Abdullayev və BP şirkətinin baş icraçı direktoru Robert Dadli imzaladılar.

AZƏRTAC

## Prezident İlham Əliyev Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisi xanım Norika Nikolaini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Avropa Parlamenti arasında əlaqələr müzakirə olundu.

AZƏRTAC

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Mən Amerika və Azərbaycan xalqları üçün qarşılıqlı maraq doğuran bir çox sahələrdə Sizinlə birgə işləmək əzmindəyəm.

Biz Sizinlə birlikdə terrorçuluğun məğlub edilməsində, yeni iş yerlərinin yaradılmasında və Avropanın enerji təhlükəsizliyinin yaxşılaşdırılmasında tərəqqi əldə edə bilərik. Korrupsiyaya qarşı mübarizədə və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində irəliləyiş bu səylərə töhfə verəcəkdir.

Sizə və Azərbaycan xalqına ən xoş arzularımı bildirirəm.

*Səmimiyyətlə,*

**Donald Tramp**
**Amerika Birləşmiş Ştatlarının Prezidenti**

## Monteneqronun yeni seçilmiş Prezidenti Zati-aliləri cənab Milo Cukanoviçə

Hörmətli cənab Cukanoviç,

Monteneqronun Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan-Monteneqro münasibətləri dinamik inkişaf yolundadır. ümidvaram ki, yenidən dövlət başçısı kimi fəaliyyət göstərəcəyiniz növbəti dövrdə ölkələrimiz və xalqlarımız arasındakı dostluq əlaqələrinin daha da genişlənməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın dərinləşməsi yolunda səylərimizi davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Monteneqro xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 aprel 2018-ci il.**

## Ü.R.Mehdiyevin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Ülvi Ramiz oğlu Mehdiyev Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri təyin edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*2.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 aprel 2018-ci il.**

## A.Ə.Paşayevin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında arxiv işi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Ataxan Əvəz oğlu Paşayev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 aprel 2018-ci il.**

## M.İbrahimqızının "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Məlahət İbrahimqızı "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 aprel 2018-ci il.**

## Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının aşağıdakı yeni tərkibi təsdiq edilsin:

**Komissiyanın sədri**

**Novruz Məmmədov** - *Azərbaycan Respublikasının Baş naziri*

**Komissiyanın üzvləri**

**Əli Əhmədov** - *Azərbaycan Respublikası Baş nazirinin müavini*
**Akif Əlizadə** - *Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti*
**Əbülfəs Qarayev** - *Azərbaycan Respublikasının mədəniyyət naziri*
**Oqtay Şirəliyev** - *Azərbaycan Respublikasının səhiyyə naziri*
**Ceyhun Bayramov** - *Azərbaycan Respublikasının təhsil naziri*
**Samir Nuriyev** - *Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri*
**İbrahim Quliyev** - *Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti*
**İsa Həbibbəyli** - *Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti*
**İsmayıl Hacıyev** - *Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin sədri*
**Əhliman Əmiraslanov** - *Azərbaycan Milli Elmlər Akademiyası Biologiya və Tibb elmləri bölməsinin akademik-katibi*
**Ömər Eldarov** - *Azərbaycan Rəssamlıq Akademiyasının rektoru*
**Abel Məhərrəmov** - *Bakı Dövlət Universitetinin rektoru*
**Siyavuş Kərimi** - *Azərbaycan Milli Konservatoriyasının rektoru*
**Çingiz Abdullayev** - *Azərbaycan Yazıçılar Birliyinin katibi*
**Cəlal Abbasov** - *Azərbaycan Bəstəkarlar İttifaqının katibi*
**Altay Hacıyev** - *xalq rəssamı*
**Arif Məlikov** - *xalq artisti*
**Şəfiqə Məmmədova** - *Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri*
**Elbay Qasımzadə** - *Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri*
**Mövlud Süleymanlı** - *xalq yazıçısı*
**Məhərrəm Qasımlı** - *Azərbaycan Aşıqlar Birliyinin sədri.*

**2.** "Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 mart tarixli 854 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 3, maddə 475) 1-ci hissəsi ləğv edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 aprel 2018-ci il.**

# Birinci vitse-prezident Mehriban Əliyeva Fransa Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri ilə görüşüb





**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva aprelin 27-də Fransa Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri, senator Alen Uper ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Alen Uperin Fransa Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri kimi ölkəmizə səfər etdiyini vurğulayaraq, ölkələrimiz arasında münasibətlərə toxundu, Azərbaycan-Fransa əlaqələrinin bütün sahələrdə çox uğurla inkişaf etdiyindən məmnunluğunu bildirdi. Ölkələrimiz arasında həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə uğurlu əməkdaşlığın qurulduğunu bildirən Mehriban Əliyeva bu münasibətlərin möhkəmlənməsində Azərbaycan-Fransa parlamentlərarası əlaqələrinin mühüm rol oynadığını diqqətə çatdırdı. Bildirdi ki, son illər ərzində bu istiqamətdə bir çox tədbirlər keçirilib. Birinci vitse-prezident iqtisadi əlaqələrə toxunaraq enerji sektorunda mövcud olan çox uğurlu əməkdaşlığı qeyd etdi, bununla yanaşı, nəqliyyat, kənd təsərrüfatı, ekologiya və digər sahələrdə qurulan əməkdaşlıqdan danışdı, Azərbaycanda bir çox Fransa şirkətlərinin uğurlu fəaliyyətini vurğuladı. Humanitar əlaqələrin əhəmiyyətinə toxunan Mehriban Əliyeva bu sahədə uğurlu əməkdaşlığın formalaşdığını bildirdi, humanitar əlaqələrin ölkələri, insanları bir araya gətirdiyini diqqətə çatdırdı. Birinci vitse-prezident Azərbaycan mədəniyyət günlərinin təkcə Fransanın paytaxtı Parisdə deyil, bu ölkənin digər şəhərlərində də uğurla keçirildiyini və böyük maraqla qarşılandığını xatırladaraq, eyni zamanda, Azərbaycanda da bu istiqamətdə görülən tədbirləri qeyd etdi. Mehriban Əliyeva Azərbaycanda Fransız liseyinin, Azərbaycan-Fransız Universitetinin uğurla fəaliyyət göstərdiyini diqqətə çatdırdı. "Bu sahədə çox işlər görülüb, amma yenə də potensial var", - deyən Birinci vitse-prezident ölkələrimiz arasında əlaqələrin daha da inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Fransalı senator, Fransa-Qafqaz dostluq qrupunun sədri Alen Uper Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşdən şərəf hissi duyduğunu söylədi. O, Fransa ilə Azərbaycan arasında mövcud olan münasibətlərin inkişafının məmnunluq doğurduğunu dedi. Qonaq Mehriban Əliyevanın ölkəmizin Fransada təbliği üçün gördüyü işləri yüksək qiymətləndirdi, bu istiqamətdə tədbirlərin davam etdirilməsinin əhəmiyyətinə toxundu. Alen Uper son illər Azərbaycan ilə Fransa arasında mövcud əməkdaşlıqdan məmnunluğunu ifadə edərək, bu əlaqələrin münasibətlərin daha da inkişafına xidmət edəcəyini vurğuladı. Senator Azərbaycanın dünya üçün vacib ölkə olduğunu bildirdi.

**AZƏRTAC**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edir, ölkənizin inkişafı və rifahı naminə ən xoş arzularımı bildirirəm.

Sizə ali dövləti vəzifənizdə yeni-yeni uğurlar arzu edirəm.

Sloveniya Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq əlaqələrinin bütün sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminəm. İnanıram ki, bizim birgə səylərimiz nəticəsində ölkələrimiz və xalqlarımız arasında hərtərəfli əməkdaşlıq beynəlxalq aləmdə sülh və sabitliyin qorunması naminə daha da inkişaf edəcək.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

**Borut Pahor**
**Sloveniya Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə Tailand Krallığının hökuməti və xalqı adından ən səmimi təbriklərimi, ən xoş arzularımı çatdırmaqdan şərəf hissi duyuram.

Əminəm ki, Sizin əzmkar və müdrik rəhbərliyinizlə Azərbaycan Respublikası və xalqı bundan sonra da inkişaf yolu ilə irəliləyəcək. Hökumətimiz Tailand Krallığı ilə Azərbaycan Respublikası arasında olan qədim dostluq münasibətlərini daha da inkişaf etdirmək və möhkəmləndirmək üçün ölkələrimiz və xalqlarımızın ortaq mənafeyi naminə bundan sonra da Sizinlə sıx əməkdaşlıq etmək niyyətinə sadiqdir.

Zati-aliləri, Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayır, ən yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**General Prayut Çan-o-ça**
**Tailand Krallığının Baş naziri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi dünyanın yüzdən çox ölkəsində yəhudi icmaları və təşkilatlarını təmsil edən ümumdünya Yəhudi Konqresi adından təbrik etməkdən çox məmnunuq.

Sizin Azərbaycanda yəhudi icmasına davamlı dəstəyinizi həmişə yüksək qiymətləndirmişik. Sizinlə Bakıdakı son görüşümüzdə dediyiniz kimi, Azərbaycan və yəhudi xalqlarının uzun bir dostluq tarixi var və iki xalq arasında yüksək səviyyəli əlaqələr mövcuddur. Əminik ki, Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında güclü ikitərəfli münasibətlər bundan sonra da inkişaf edəcəkdir.

Seçkilərdəki qələbəniz münasibətilə Sizi bir daha təbrik edirik. Zati-alinizə salamlarımızı və təbriklərimizi şəxsən çatdıracağımız günü səbirsizliklə gözləyirik.

*Hörmətlə,*

**Ronald Lauder**
**Ümumdünya Yəhudi Konqresinin prezidenti,**
**Robert Zinger**
**Konqresin baş icraçı direktoru**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətində (ABƏŞ) erkən neft layihəsi çərçivəsində Sizinlə çalışdığım illəri fərəh hissi ilə xatırlayıram. Siz Azərbaycanın maraqlarını daim hər şeydən üstün tutaraq, ABƏŞ-in fəaliyyətə başlamasına və qarşısına qoyulan tapşırıqların öhdəsindən uğurla gəlməsinə öz qayğınızı göstərmisiniz.

Erkən neft layihəsi Qərbin neft şirkətlərinin Azərbaycan Respublikasında uğurla fəaliyyət göstərə biləcəyini sübut edən bir pilot layihəsi idi. Həmin layihə Azərbaycana investisiyaların uğurla cəlb olunmasına şərait yaratdı, atanız Zati-aliləri Heydər Əliyevin və daha sonra Sizin Prezidentliyiniz dövründə "Azəri-Çıraq-Günəşli" yatağının tam istismara verilməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, "Şahdəniz" və "Cənub Qaz Dəhlizi" kimi layihələrin həyata keçirilməsi üçün xarici sərmayələrin Azərbaycana cəlb edilməsində olduqca mühüm rol oynadı. Neft-qaz sənayesindən əldə edilən gəlirlər maliyyə, əmlak, telekommunikasiya və digər xidmət sahələri də daxil olmaqla, Azərbaycanın iqtisadiyyatının sürətli inkişafına təkan verdi.

Erkən neft layihəsi çərçivəsində təyinatım başa çatdığına görə 1997-ci ildə Azərbaycandan geri qayıtmalı oldum. Sonra 2004-cü, 2006-cı, 2009-cu, 2011-ci və 2014-cü illərdə yenidən ölkənizə səfər etdim. Azərbaycana etdiyim hər səfərdə əvvəlki səfərlərlə müqayisədə daha böyük iqtisadi inkişaf və ümumiyyətlə, ölkənin müsbət istiqamətdə transformasiyasını görürəm. Həmçinin Azərbaycan Dövlət Neft Fondunun gələcək nəsillər üçün qoyduğu sərmayələrdən də böyük məmnunluq hissi keçirirəm.

2010-cu ildən Azərbaycan Respublikasının ABŞ-ın Nyu-Meksiko ştatında fəxri konsulu kimi fəaliyyət göstərmək mənim üçün böyük şərəfdir. Mənə Azərbaycan Respublikasının maraqlarına xidmət etmək imkanı yaratdığınız üçün Sizə təşəkkürümü bildirirəm. Fəxri konsul olduğum bu illər ərzində Azərbaycan Respublikası və Nyu-Meksiko ştatı arasında möhkəm və qarşılıqlı faydalı əlaqələr qurulmuşdur. Nyu-Meksiko ştatının qanunverici orqanı Azərbaycan-ABŞ strateji tərəfdaşlığını və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən, həmçinin Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalını və azərbaycanlılara qarşı aparılan etnik təmizləmə siyasətini, eləcə də Xocalıda törədilmiş qətliamı pisləyən çoxsaylı qətnamələr qəbul etmişdir. Bu müddət ərzində mən Nyu-Meksiko ştatının rəsmi nümayəndələri ilə görüşlər keçirmiş, müxtəlif ictimai tədbirlərdə Azərbaycan haqqında mühazirələr oxumuşam. Ticarət, mədəniyyət, həmçinin təhsil sahəsində mübadilələr təşkil etmişəm. 2018-ci ilin yanvar ayında Nyu-Meksiko Nümayəndələr Palatası tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı tarixi qətnamənin qəbul olunmasında iştirak etmişəm.

Sizi bir daha təbrik edir və yeni prezidentlik müddətinizdə böyük uğurlar arzulayıram. Başa düşürəm ki, Sizin çox gərgin iş qrafikiniz var, ancaq Bakıya növbəti səfərim zamanı Sizin tərəfinizdən qəbul edilmək mənim üçün yüksək şərəf olardı.

*Dərin hörmətlə,*

**Art Makhaffi**
**Azərbaycan Respublikasının ABŞ-ın Nyu-Meksiko ştatındakı fəxri konsulu**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Sizin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyinizə bütün dünya azərbaycanlıları kimi Gürcüstan Azərbaycanlılarının Ziyalılar Birliyi də sevinir və bunu ürəkdən alqışlayır.

Hörmətli İlham Heydər oğlu, Siz bünövrəsi ulu öndər Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasını davam etdirərək beynəlxalq aləmdə doğma Vətəninizə şöhrət, Azərbaycan xalqına isə sülh və əmin-amanlıq gətirdiniz. Sizin seçkilərdəki inamlı qələbəniz buna bir daha əyani sübutdur. Azərbaycan xalqı xoşbəxtdir ki, Sizin kimi qətiyyətli lideri var.

Biz əminik ki, Siz dünyada və ölkənizdə sülhün və əmin-amanlığın bərqərar olması üçün bundan sonra da əlinizdən gələni əsirgəməyəcəksiniz.

Cənab Prezident, bu parlaq qələbə münasibətilə Sizi bir daha təbrik edir, möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

*Hörmətlə,*

**Novruz Bayramov**
**Gürcüstan Azərbaycanlılarının Ziyalılar Birliyinin sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik edir, ali dövləti fəaliyyətinizdə böyük uğurlar arzulayıram. Əminəm ki, bu tarixi hadisə Azərbaycanın iqtisadi, sosial, siyasi inkişafında və beynəlxalq əlaqələrinin genişlənməsində yeni tərəqqi dövrünün başlanğıcı olacaqdır. Bu yeni dövrdə təhsil ocaqlarımızda milli dəyərlərə əsaslanaraq Azərbaycanın tarixi, dili, mədəniyyəti, coğrafiyası dərindən öyrənilərək daha geniş təbliğ olunacaq, təhsil və elm müasir tələblər səviyyəsinə yüksəldiləcəkdir. Sizin sərəncamlarınızla yeni hökumətdə güclü və gənc mütəxəssislərin təmsil olunması təqdirəlayiqdir.

Xarici ölkələrdə ictimai-elmi fəaliyyət göstərən vətənpərvər azərbaycanlılar inanırlar ki, Sizin rəhbərliyinizlə Azərbaycan böyük uğurlar qazanmaqda davam edəcək, Azərbaycan Ordusu cəsur hərbçiləri və müasir silahları ilə, Konstitusiyaya və xalqın iradəsinə əsaslanaraq tezliklə ölkəmizin ərazi bütövlüyünün bərpasına nail olacaqdır. Sizi əmin edirəm ki, diaspor və lobbiçilik fəaliyyətimizi daha da gücləndirərək, Vətənimiz Azərbaycanın milli mənafelərini bundan sonra da ləyaqətlə qoruyacağıq.

*Hörmətlə,*

**Fərhad Turanlı**
**Azərbaycanlı və Ukraynalı Ziyalılar Assambleyasının sədri, tarix elmlər doktoru**

# Avropa Parlamenti Milli Məclislə əlaqələri inkişaf etdirməkdə maraqlıdır

**Aprelin 27-də Milli Məclisin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisi xanım Norika Nikolai ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə sədr Azərbaycanın Avropa İttifaqı və onun qurumları ilə əməkdaşlığın hərtərəfli inkişafında maraqlı olduğunu bildirib. Bu baxımdan qarşılıqlı səfərlərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Avropa İttifaqı ilə münasibətlərdə son dövrlərdə müsbət dinamika müşahidə olunmaqdadır.

Oqtay Əsədov xanım Norika Nikolai ilə ikinci dəfə görüşdüyünü xatırladaraq, onun Milli Məclis ilə Avropa Parlamenti arasında münasibətlərin inkişafı istiqamətində səylərini və bu qurumda mövcud olan Azərbaycan ilə dostları qrupunun üzvü kimi fəaliyyətini yüksək dəyərləndirib. Bildirilib ki, Azərbaycan üzrə məruzənin hazırlanması artıq yekun mərhələdədir. "Cari ilin mayında qurumun xarici əlaqələr komitəsində sənəd müzakirəyə çıxarılacaq. Ümid edirik ki, sənəddə bölgə reallıqları öz obyektiv əksini tapacaq. Bununla yanaşı, bəzi siyasətçilər tərəfindən Milli Məclis və Avropa Parlamenti arasında son dövrlər əldə edilən nailiyyətlərə kölgə salmaq cəhdlərinə qarşıyıq. Belə hesab edirik ki, Avropa Parlamentində kifayət qədər rasional düşünən insanlar var. Məhz bunun nəticəsidir ki, son bir ildə parlamentlər arasında münasibətlər yüksələn xətlə inkişaf edir",-deyə sədr vurğulayıb.



Görüşdə Milli Məclis sədri vurğulayıb ki, 1999-cu ildən qüvvədə olan Azərbaycan ilə Avropa İttifaqı arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi bugünkü dinamikaya uyğun deyil. Buna görə də yeni sənədin hazırlanmasına ehtiyac var. 2017-ci ilin noyabrında Azərbaycan Prezidentinin Şərq Tərəfdaşlığı Sammitində iştirakı ölkəmiz tərəfindən bu quruma göstərilən diqqətin bariz nümunəsidir. Biz gələcəkdə də Avropa Parlamenti ilə münasibətlərimizi inkişaf etdirmək niyyətindəyik.

Səmimi qəbul üçün minnətdarlığını bildirən xanım Norika Nikolai növbəti dəfə Milli Məclisdə olmağından məmnunluğunu ifadə edib. Bildirib ki, onun təmsil etdiyi qurum Milli Məclislə əlaqələri inkişaf etdirməkdə maraqlıdır. Milli Məclisin fəaliyyətində əsaslandığı dəyərlər alqışa layiqdir.

Qonaq son dövrdə münasibətlərin inkişafında əldə edilmiş uğurları, Azərbaycan nümayəndə heyətinin Avronest PA-da fəaliyyətini bərpa etməsini yüksək qiymətləndirib. O, ölkəmizə səfərini və burada keçirdiyi görüşləri çox əhəmiyyətli hesab edib.

Söhbət zamanı tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və Avropa İttifaqı-Azərbaycan Parlamentlərarası Əməkdaşlıq Komitəsinin həmsədri Cavanşir Feyziyev də iştirak ediblər.

**AZƏRTAC**

# Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisi ilə Ədliyyə Nazirliyində görüş olub



**Aprelin 27-də ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisi xanım Norika Nikolai ilə görüşüb.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan ilə Avropa İttifaqı arasında qarşılıqlı fəaliyyətin əhəmiyyətinin qeyd olunduğu görüşdə Prezident İlham Əliyevin cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası üzrə görülən tədbirlər, o cümlədən cinayət qanunvericiliyinə 300-ə yaxın mühüm dəyişikliklərin edilməsi, həbs edilmiş şəxslərin sayının azalması, Probasiya xidmətinin fəaliyyəti, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələrinin tətbiqi, habelə məhkəmə hakimiyyətinin müstəqilliyinin gücləndirilməsinə yönəlmiş islahatlar barədə məlumat verilib. Həmçinin bu sahədə Azərbaycanın Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin qaliblərindən olduğu və digər nüfuzlu beynəlxalq təşkilatların mükafatlarına layiq görüldüyü qeyd edilib.

Qonaq Azərbaycan Prezidentinin Sərəncamının müstəsna əhəmiyyətini vurğulayaraq dövlətimizin cəza siyasətinə humanist yanaşmasını təqdir edib, bu sahədə atılan addımların digər ölkələr üçün önəmini vurğulayıb. Xanım N.Nikolai, həmçinin ölkəmizdə ədalət mühakiməsinin səmərəliliyi üzrə həyata keçirilən islahatlara böyük maraqla qarşılayaraq faydalı fikir mübadiləsi aparıb.

Səmərəli müzakirələr zamanı Avropa İttifaqı ilə əməkdaşlığın gücləndirilməsi, o cümlədən probasiya, mediasiya və digər prioritet sahələr üzrə təcrübə mübadiləsinin aparılmasının əhəmiyyəti qeyd olunub, qonağı maraqlandıran suallar ətraflı cavablandırılıb.

Tədbirdə Avropa İttifaqı-Azərbaycan parlament əməkdaşlıq komitəsinin həmsədri, deputat Cavanşir Feyziyev iştirak edib.

**AZƏRTAC**

*Nazir:*

# Azərbaycan ilə Malayziya arasında formalaşmış çoxşaxəli ikitərəfli münasibətlər təqdirəlayiqdir

**Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov ilə Malayziyanın xarici işlər naziri Anifah Aman arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyi münasibətilə təbrik məktubu mübadiləsi həyata keçirilib.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov həmkarına ünvanladığı məktubunda Azərbaycanın Malayziya ilə dostluq, qarşılıqlı anlaşma və ətimad ruhunda olan səmimi dialoq və əməkdaşlığa böyük əhəmiyyət verdiyini bildirib.

Elmar Məmmədyarov ölkələrimiz arasında ortaq maraq və yaxın əməkdaşlıq əsasında qurulmuş səmimi bir münasibətin formalaşdırıldığını qeyd edib. O, iki ölkəni daha da yaxınlaşdırmaq üçün ən yaxşı zəmanət olan insanlararası münasibətlərin gücləndirilməsinin, qarşılıqlı olaraq xalqlarımızın mədəniyyətlərinə marağın artırılmasının böyük əhəmiyyət daşıdığını vurğulayıb.

Nazir, həmçinin Malayziyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həllini dəstəkləyən mövqeyini, bu çərçivədə qəbul olunmuş BMT-nin və İƏT-in müvafiq qətnamələrini dəstəkləməsinin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb və bu dəstəyin davam edəcəyinə əminliyini ifadə edib.

Malayziyanın xarici işlər naziri Anifah Aman Elmar Məmmədyarova ünvanladığı məktubunda ötən 25 il ərzində iki ölkə arasında əlaqələrin bir çox sahələrdə, o cümlədən insanlararası münasibətlər səviyyəsində son dərəcədə inkişaf etdiyini bildirib. O qeyd edib ki, iki ölkə arasında qarşılıqlı anlaşma və rəğbət əsasında formalaşmış çoxşaxəli ikitərəfli münasibətlər təqdirəlayiqdir. Həmçinin nazir ikitərəfli əlaqələrin daha da gücləndirilməsi və inkişaf etdirilməsi üçün gələcəkdə birgə fəaliyyətin davam etdirilməsinə hazır olduğunu vurğulayıb.

**AZƏRTAC**

# Azərbaycanın və Rusiyanın xarici işlər nazirləri Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsini müzakirə ediblər

**Qarşı tərəfin təklifi əsasında Azərbaycan Respublikası xarici işlər naziri Elmar Məmmədyarov və Rusiya Federasiyasının xarici işlər naziri Serqey Lavrov arasında telefon danışığı olub.**

Bunu AZƏRTAC-a açıqlamasında xarici işlər nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib. Qeyd edib ki, nazirlər Azərbaycan və Rusiya arasında ikitərəfli əlaqələrin inkişaf perspektivlərini, Xəzər dənizinin hüquqi statusuna dair konvensiya və Xəzəryanı dövlətlərin qarşıdan gələn V sammitinə hazırlıq məsələlərini, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll üzrə aparılan danışıqlar prosesini müzakirə ediblər.

**AZƏRTAC**

# Baş prokuror Samuxda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.**



Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Zakir Qaralov aprelin 27-də Samux Rayon Prokurorluğunun inzibati binasında Gəncə şəhərindən, Samux, Göygöl, Goranboy, Daşkəsən, Xocalı və Kəlbəcər rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror Zakir Qaralov və Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edib, şəhərin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri qoyublar.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Zakir Qaralov bölgədə yaşayan 21 vətəndaşın müraciətini dinləyib. Müraciətlərdə qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

Vətəndaşlar bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Sonda tabe prokurorların iştirakı ilə müşavirə keçirilib. Müşavirədə vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyinin və kəsərliliyinin artırılması, vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkili ilə əlaqədar prokurorluq orqanlarının qarşısında duran vəzifələrlə bağlı konkret tapşırıqlar verilib.

**AZƏRTAC**

# Pekində Azərbaycan və Çin müdafiə nazirlərinin görüşü keçirilib

**Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Çin Xalq Respublikası (ÇXR) Dövlət Şurasının üzvü, ÇXR-in milli müdafiə naziri, general-polkovnik Vey Fenxenin dəvəti ilə Pekində rəsmi səfərdədir.**



AZƏRTAC xəbər verir ki, aprelin 27-də ÇXR-in Milli Müdafiə Nazirliyində Azərbaycanın müdafiə nazirinin rəsmi qarşılanma mərasimindən sonra iki ölkənin müdafiə nazirlərinin görüşü olub.

V.Fenxe Çin ilə Azərbaycanın coğrafi baxımdan bir-birindən uzaq məsafədə yerləşməyə baxmayaraq, xalqlarımız arasında tarixən dostluq münasibətlərinin olduğunu qeyd edib. O, bu münasibətlərin yaranmasında tarixi "İpək yolu"nun vacib rol oynadığını bildirib.

İyirmi altı il əvvəl iki ölkə arasında qurulan diplomatik əlaqələrin müasir dövrdə də inkişaf etdiyini diqqətə çatdıran çinli nazir əlavə edib ki, ötən müddətdə müxtəlif sahələrdə əməkdaşlığımız genişlənib, qarşılıqlı siyasi etimad xeyli güclənib. V.Fenxe "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində ölkələrimizin əməkdaşlığı üçün yeni imkanların yarandığını, Azərbaycanın bu strategiyaya verdiyi böyük dəstəyi məmnunluqla qeyd edib. O, iki ölkənin hərbi sahədə əməkdaşlığına toxunaraq, bu istiqamətdə böyük potensialın olduğunu bildirib.

V.Fenxe ölkəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyinin dəyişməzdiyini, hər zaman olduğu kimi münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarı olduğunu xüsusi qeyd edib.

Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən general-polkovnik Z.Həsənov vurğulayıb ki, Azərbaycan ilə Çin arasında dostluq münasibətləri dərin köklərə malikdir. Bu münasibətlər ölkələrimiz arasında müasir əlaqələrin əsasını təşkil edir. Çin ilə hərtərəfli əməkdaşlıq isə ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən biridir.

Azərbaycan-Çin münasibətlərində qarşılıqlı etimadın yaradılmasında və əlaqələrin genişlənməsində ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətlərini xatırladan general-polkovnik Z.Həsənov bildirib ki, bu dostluq münasibətləri dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə inkişaf etdirilərək yüksək əməkdaşlıq səviyyəsinə çatdırılıb. Ölkələrimizin rəhbərlərinin və rəsmi şəxslərin qarşılıqlı səfərləri artıq daimi xarakter alıb. Bu da öz növbəsində mövcud dostluq münasibətlərinin, əməkdaşlığın daha da möhkəmlənməsinə mühüm töhfədir.

Cənubi Qafqazdakı hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Z.Həsənov vurğulayıb ki, Ermənistanın Azərbaycana qarşı 25 ildən artıq davam edən işğalçılıq siyasəti təkcə ölkəmiz üçün deyil, bütün regionda sülhə və təhlükəsizliyə ciddi təhdid təşkil edir.

Müdafiə naziri Çinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyinə görə təşəkkürünü bildirib. Z.Həsənov xüsusi qeyd edib ki, Azərbaycan da Çin Xalq Respublikasının "Vahid Çin" siyasətinə hörmətlə yanaşır, bu konsepsiyanı dəstəkləyir və beynəlxalq aləmdə ÇXR-i təmsil edən təşkilatları tanıyır.

Dostluq və qarşılıqlı etimad şəraitində keçirilən görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Görüşün sonunda Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Çin Xalq Respublikası Milli Müdafiə Nazirliyi arasında hərbi yardımın göstərilməsinə dair sənəd imzalanıb.

**AZƏRTAC**

# MSN-in ixrac etdiyi məhsulun həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə iki dəfə artıb

**Müdafiə Sənayesi Nazirliyində (MSN) 2018-ci ilin birinci rübünün yekunlarına həsr olunmuş kollegiya keçirilib.**

MSN-dən AZƏRTAC-a bildiriblər ki, iclasda çıxış edən kollegiyanın sədri nazir Yavər Camalov aprelin 11-də ölkəmizdə keçirilən prezident seçkilərində böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyevi Müdafiə Sənayesi Nazirliyinin kollektivi adından təbriklərini ifadə edib. Diqqətə çatdırıb ki, Azərbaycan xalqı seçkilərdə ulu öndər Heydər Əliyevin siyasi kursunun davamçısı İlham Əliyevə yenidən səs verməklə müstəqil respublikamızın sürətli inkişafının və təhlükəsizliyinin təminatçısına səs verib. Xalqımız əmindir ki, İlham Əliyev bundan sonrakı fəaliyyəti dövründə də respublikamızın işıqlı gələcəyi naminə bütün gücünü səfərbər edəcək. Bu əminliyi Azərbaycan xalqında formalaşdıran Prezident İlham Əliyevin fəaliyyəti dövründə qətiyyətli və düzgün siyasət yürüdərək müstəqil respublikamızı qüdrətləndirməsi, dünya birliyinə sivil və modern dövlət kimi qəbul etdirməsi olub.

Kollegiya üzvləri Yavər Camalovu yenidən Azərbaycan Respublikasının müdafiə sənayesi naziri təyin olunması münasibətilə təbrik ediblər.

Nazir Yavər Camalov göstərilən böyük etimada görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Respublikamızda qazanılan uğurlardan danışan nazir deyib ki, son illər Prezident İlham Əliyevin uzaqgörənliyi sayəsində həyata keçirilən uğurlu islahatlar öz bəhrəsini verir. Respublikada yürüdülən düzgün iqtisadi strategiya ölkə iqtisadiyyatının şaxələndirilməsinə, xüsusilə iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına müsbət təsir göstərib. Ölkədə əməkhaqlarının, pensiyaların artması, aztəminatlı ailələrə ünvanlı sosial yardımların verilməsi və yoxsulluğun aşağı salınmasına xidmət edən dövlət proqramlarının uğurlu icrası əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən mühüm tədbirlərdəndir. Digər sahələrlə yanaşı, ordu quruculuğunda da islahatların aparılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm işlər görülüb. Bu işlər bu gün də davam etdirilir.

Kollegiya iclasında hesabat dövründə MSN-in birlik və müəssisələrində istehsal, maliyyə-təsərrüfat fəaliyyətlərinin yekunları və qarşıda duran məsələlər geniş müzakirə edilib. Diqqətə çatdırılıb ki, hesabat dövründə nazirliyin müəssisələrində 2018-ci il üçün nəzərdə tutulan tədbirlərin icrası davam etdirilib. Respublikanın güc strukturlarının sifarişləri əsasında bağlanmış müqavilələr üzrə müxtəlif adda müdafiə təyinatlı məmulatlar istehsal olunaraq sifarişçilərə təhvil verilib.

Hesabat dövründə istehsal olunan məhsulun 89 faizini müdafiə və xüsusi təyinatlı, 11 faizini isə mülki təyinatlı məmulatlar təşkil edib. İstehsalı mənimsənilmiş müdafiə təyinatlı məmulatların çeşid sayı 1200-ə çatdırılıb. İstehsal olunan məmulatlardan döyüş sursatları, müasir atıcı silahlar və artilleriya silahları, pilotsuz uçuş aparatları, zirehli texnikalar və digər müdafiə təyinatlı məmulatlar 10-dan çox ölkəyə ixrac olunur. İxrac olunan məhsulun həcmi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə iki dəfə artıb.

Bu il nazirliyin müəssisələrində Müdafiə Sifarişi Proqramına müvafiq olaraq, 118 mövzunu əhatə edən 127 adda məmulat üzrə təcrübi-konstruktor işlərinin aparılması nəzərdə tutulur. Aparılacaq işlər 181 mərhələni əhatə edəcək. Yaradılması nəzərdə tutulan məmulatlardan xüsusi təyinatlı hücum pulemyotunu, müxtəlif millimetrlik avtomat silahları, iriçaplı pulemyotlar və avtomatik toplar üçün lülələri, avtomatik qumbaraatan kompleksini, lüləaltı qumbaraatanını və snayper tüfəngləri üçün optik nişangahları göstərmək olar.

Hesabat dövründə yeni müdafiə təyinatlı məmulatların yaradılması üzrə nazirliyin Elmi-Tədqiqat İnstitutu (ETİ) və Milli Aerokosmik Agentliyi (MAKA) tərəfindən dövlət sifarişi xətti ilə elmi-tədqiqat və təcrübi-konstruktor işləri uğurla davam etdirilib.

Bu ilin birinci rübündə nazirliyin qarşısında qoyulan tapşırıqların vaxtında təmin edilməsi üçün dünyanın inkişaf etmiş dövlətlərinin hərbi sənaye kompleksinə daxil olan şirkət və qurumlarla hərbi-texniki sahədə əməkdaşlıq davam etdirilib.

Bildirilib ki, 2009-cu ildən beynəlxalq sərgilərə qatılan MSN cari ilin iyununda Fransada keçiriləcək beynəlxalq müdafiə və təhlükəsizlik sərgisində - "EUROSATORY-2018"də iştirak edəcək. "EUROSATORY-2018" sərgisinə ilk dəfə qatılan MSN bu sərgidə 268 adda məmulat nümayiş etdirəcək. Sərgidə bir neçə adda yeni növ müdafiə təyinatlı məmulatın nümayişi nəzərdə tutulur.

Kollegiyada cari ilin sentyabrında Bakıda keçiriləcək "ADEX-2018" beynəlxalq müdafiə sərgisi ilə bağlı görülən işlərdən də danışılıb. Qeyd edilib ki, 2014-cü və 2016-cı illərdə "ADEX" adı altında Azərbaycanda keçirilən beynəlxalq müdafiə sərgilərinin təşkilatçısı və iştirakçısı olan MSN tərəfindən üçüncü Azərbaycan beynəlxalq müdafiə sərgisinin (ADEX-2018) yüksək səviyyədə təşkili istiqamətində müvafiq işlər aparılır. Bununla bağlı xarici ölkələrin müvafiq qurumları ilə danışıqlar aparılır və təşkilati tədbirlər həyata keçirilir. Eyni zamanda, "ADEX-2018" sərgisində Azərbaycan istehsalı olan yeni müdafiə təyinatlı məmulatların nümayiş etdirilməsi üçün nazirliyin müəssisələrində müvafiq işlər görülür.

İclasda nazirliyin birlik və müəssisələrinin rəhbərlərinin hesabatları dinlənilib və müəssisələrin fəaliyyətləri müzakirə edilib.

Nazir hesabat dövründə tabeli birlik və müəssisələr tərəfindən görülmüş işləri müsbət qiymətləndirdiyini bildirib.

Yavər Camalov Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyevin verdiyi tapşırıqları bir daha iclas iştirakçılarının diqqətinə çatdırıb. Nazir respublikanın müdafiə sənayesinin inkişafı istiqamətində qarşıya qoyulan tapşırıqların icrası ilə əlaqədar struktur bölmə, birlik və müəssisələrin rəhbərlərinə göstərişlər verib.

**AZƏRTAC**

# Azərbaycanın müdafiə naziri Çinin Mərkəzi Hərbi Şurasının sədr müavini ilə görüşüb

**Pekində səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Çin Xalq Respublikası (ÇXR) Mərkəzi Hərbi Şurasının sədr müavini, general-polkovnik Su Çilian ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan nümayəndə heyətini salamlayan Su Çilian iki ölkənin xalqları arasında tarixən mövcud olan dostluq əlaqələrinin hazırda daha sürətlə inkişaf etdiyini deyib. Çinin Azərbaycan xalqının seçdiyi inkişaf yolunu dəstəklədiyini diqqətə çatdıran Su Çilian ölkəsinin Azərbaycanın uğurlarına sevindiyini bildirib.

Mərkəzi Hərbi Şuranın sədr müavini iki ölkənin tarixən "İpək yolu" vasitəsilə münasibətlər qurduğunu, müasir dövrdə "Bir kəmər, bir yol" strategiyasının bu əməkdaşlığın daha da dərinləşməsi üçün yeni imkanlar yaratdığını bildirib.

Su Çilian Azərbaycanın və Çinin digər sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığının əhəmiyyətini vurğulayaraq, münasibətlərin genişləndirilməsi üçün böyük potensialın olduğunu qeyd edib.

Diqqətə və səmimi qəbula görə təşəkkürünü bildirən general-polkovnik Z.Həsənov vurğulayıb ki, ÇXR-in terrorçuluqla, separatçılıqla və transmilli cinayətkarlıqla mübarizədə, o cümlədən dünyada sülhün və sabitliyin dəstəklənməsində mühüm rolu var. Çin, həmçinin beynəlxalq sülhməramlı əməliyyatlarda fəal iştirak edir. Cənubi Qafqazda ən yüksək döyüş qabiliyyətinə malik orduya sahib olan Azərbaycan da dünyada və regionda sülhün və sabitliyin təmin edilməsi məqsədilə sülhməramlı əməliyyatlara öz töhfəsini verir.

Azərbaycanın müdafiə naziri Çinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyinə görə qarşı tərəfə təşəkkürünü bildirib.

Müdafiə naziri xüsusi qeyd edib ki, Azərbaycan da Çinin "Vahid Çin" siyasətinə hörmətlə yanaşır, bu konsepsiyanı dəstəkləyir və beynəlxalq aləmdə ÇXR-i təmsil edən təşkilatları tanıyır.

Azərbaycan Müdafiə Nazirliyinin Çinin hərbi təyinatlı məhsullar istehsal edən bir sıra korporasiya və şirkətləri ilə əməkdaşlıq etdiyini deyən general-polkovnik Z.Həsənov bildirib ki, bu işbirliyi çərçivəsində mütəmadi olaraq həm işgüzar səfərlər, həm də ekspertlərin görüşləri təşkil edilir.

General-polkovnik Z.Həsənov səfər çərçivəsində keçirilən görüşlərin, aparılan danışıqların ölkələrimizin orduları arasında əlaqələrin daha da genişləndirilməsinə mühüm təkan verəcəyinə əminliyini bildirib.

Dostluq və qarşılıqlı etimad şəraitində keçirilən görüşdə Cənubi Qafqazda və Şərqi Asiyada regional təhlükəsizlik məsələləri, Azərbaycan ilə Çin arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

Qeyd edək ki, Mərkəzi Hərbi Şura Çində Silahlı Qüvvələrin ali idarəedici orqanıdır. Şuraya Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Si Cinpin rəhbərlik edir.

**AZƏRTAC**

# Daxili İşlər Nazirliyində Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisi ilə görüş keçirilib

**Aprelin 27-də Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov ölkəmizdə səfərdə olan Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisi xanım Norika Nikolai ilə görüşüb.**



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Ramil Usubov 1996-cı ildə imzalanmış tərəfdaşlıq və əməkdaşlıq sazişinin Azərbaycan-Avropa İttifaqı münasibətlərinin hüquqi əsasını təşkil etdiyini, həmin dövrdə beynəlxalq ekspertlərin iştirakı ilə polisin fəaliyyətini tənzimləyən yeni qanunların hazırlandığını və xidməti fəaliyyətdə rəhbər tutulan bu sənədlərdə məhz insan hüquq və azadlıqlarının qorunması və təmininin əsas fəaliyyət istiqaməti kimi müəyyən edildiyini deyib. Qanunların icrasını həyata keçirmək, o cümlədən şəxsi heyətin peşəkarlığının artırılması və ümumilikdə polisin beynəlxalq standartlara uyğun fəaliyyət göstərməsi məqsədilə BMT, Avropa Şurası, Avropa İttifaqı, ATƏT və digər beynəlxalq qurumların təşkilatçılığı ilə təşkil olunan təlimlərdə, seminarlarda, konfrans və forumlarda 10 minə yaxın polis əməkdaşının iştirak etdiyi qonağın diqqətinə çatdırılıb. Qeyd olunub ki, ədalətli və şəffaf seçki prosesinin keçirilməsi, o cümlədən seçki hüququna malik vətəndaşların şəxsiyyəti təsdiq edən sənədlərlə təmini, seçki proseslərinə polis əməkdaşlarının müdaxiləsinin qarşısının alınması məqsədilə təşkil edilən təlimlərdə polisin vəzifəsinin yalnız asayişin, əmin-amanlığın qorunması və insanlara öz iradələrini maneəsiz ifadə etməyə lazımi şəraiti yaratmaqdan ibarət olması istiqamətində izahedici işlər aparılıb. Seçkiqabağı prezidentliyə namizədlərin seçicilərlə görüşü və keçirdikləri digər kütləvi tədbirlər zamanı onların təhlükəsizliyi tam təmin edilib.

Bildirilib ki, hüquq qaydasına riayət edilməsinin fasiləsiz və canlı izlənilməsi məqsədilə istismara verilmiş "102 Zəng Mərkəzi" Xidmətinin və "Təhlükəsiz Şəhər" sisteminin fəaliyyəti məhz insan amili kimi ali prinsip üzərində qurulub. Həmçinin "102 Zəng Mərkəzi" Xidmətinə il ərzində daxil olan orta hesabla 250 mindən çox məlumat üzrə görülən çevik cavab tədbirləri ilə, eləcə də "Təhlükəsiz şəhər" sisteminin 110 mindən artıq videomüşahidə kamerasının tətbiqi sayəsində hər il 20 mindən çox hüquqazidd əməlin qarşısı alınır, 1400-ə yaxın cinayət "isti izlər"lə açılır.

Polisin fəaliyyətinə idarədaxili nəzarətin həyata keçirilməsi, o cümlədən korrupsiyaya şərait yaradan halların və bu kimi hüquqpozmalara yol verən əməkdaşların müəyyənləşdirilərək barələrində müvafiq tədbirlərin görülməsi işinin təşkili məqsədilə nazirliyin strukturunda müvafiq qurumun yaradıldığı qeyd olunub.

Nazir Ramil Usubov bildirib ki, ötən beş ildə korrupsiya hüquqpozmaları ilə əlaqədar aşkarlanmış 203 fakt üzrə 317 əməkdaş haqqında məsuliyyət tədbirləri görülüb. Onlardan 205 nəfəri xidmətdən xaric olunub, 85 nəfəri tutduğu vəzifədən azad edilib, 27 nəfər barəsində isə digər intizam tənbehləri tətbiq edilib.

İşgəncənin, ləyaqəti alçaldan və ya qeyri-insani rəftarın qarşısının alınması üzrə Avropa Komitəsinin tövsiyələrinə uyğun olaraq müvəqqəti saxlama yerlərində şəraitin yaxşılaşdırılması üçün zəruri olan bütün işlərin görüldüyünü qeyd edən nazir vurğulayıb ki, respublika üzrə DİN-in 72 müvəqqəti saxlama yeri mövcuddur. Onlar beynəlxalq standartlara uyğun qurularaq müasir siqnalizasiya, video-nəzarət və digər avadanlıqla təchiz edilib. Son beş ildə müvəqqəti saxlama yerlərində 1359 monitorinq keçirilib, xidmət zamanı yol verdikləri nöqsanlara görə 329 əməkdaş müxtəlif intizam məsuliyyətinə cəlb olunub.

Diqqətə çatdırılıb ki, aparılan araşdırmalar zamanı işgəncə vermə və ləyaqəti alçaldan faktlar aşkar edilməyib. Bununla belə, son beş ildə vətəndaşlarla kobud rəftar, əsassız gətirmə, saxlama, məsuliyyətə cəlb etmə, qanunsuz axtarış aparma, bir sözlə, vətəndaş hüquqlarını pozduqlarına görə 1378 fakt üzrə 1797 nəfər cəzalandırılıb. Onlardan dördü cinayət məsuliyyətinə cəlb edilib, 170-i daxili işlər orqanlarından xaric edilib. Habelə 161 nəfər tutduğu vəzifədən azad olunub, 10 nəfərin xüsusi rütbəsi aşağı salınıb, 1452 nəfər barəsində digər intizam tədbirləri görülüb.

Problemlərə toxunularkən transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsi, beynəlxalq terrorçuluq, insan alveri və qanunsuz miqrasiya ilə mübarizənin diqqət mərkəzində olduğu vurğulanıb.

Səmimi görüşə və ətraflı məlumata görə minnətdarlığını bildirən xanım Norika Nikolai Avropa Parlamentinin Azərbaycan ilə ikitərəfli əlaqələrin inkişafına böyük önəm verdiyini, əməkdaşlığın daha da genişlənməsində səylərini əsirgəməyəcəyini vurğulayıb.

İşgüzarlıq şəraitində keçən görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub, Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisini maraqlandıran suallar cavablandırılıb.

**AZƏRTAC**

# Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisi Şəhidlər xiyabanını ziyarət edib

**Ölkəmizdə səfərdə olan Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisi xanım Norika Nikolai aprelin 27-də Şəhidlər xiyabanını ziyarət edib.**



AZƏRTAC xəbər verir ki, qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anıb, məzarları üzərinə gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsini ziyarət edib.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonağa şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

**AZƏRTAC**

# Suraxanı rayonu: akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95 illiyinə həsr olunmuş konfrans

**Azərbaycanın ən parlaq və tanınmış simalarından olan görkəmli oftalmoloq-alim, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95-ci ildönümü münasibəti ilə Suraxanı rayonunda silsilə tədbirlər keçirilir.**



Suraxanı Rayonu Heydər Əliyev Mərkəzinin, Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin, rayon icra hakimiyyətinin və YAP Suraxanı Rayon Təşkilatının birgə təşkilatçılığı ilə Mərkəzdə "Zərifə Əliyeva - böyük alim, fədakar qadın, qayğıkeş ana" mövzusunda konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə, ulu öndərin Heydər Əliyev parkında ucalan abidəsini ziyarət etdikdən sonra Suraxanı rayonu Heydər Əliyev Mərkəzində görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın anadan olmasının 95-ci ildönümü münasibəti ilə yaradılmış guşədə qoyulmuş büstü önünə tər güllər düzərək rəsm və kitab sərgisi ilə tanış oldular. "Elegiya" filminin nümayişindən sonra konfrans Zərifə xanım Əliyevanın əziz xatirəsini bir dəqiqəlik sükutla yad etməklə başladı.

Konfransı giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov qeyd etdi ki, tariximizdə silinməz iz qoymuş, Azərbaycanın ən parlaq və tanınmış simalarından olan əməkdar elm xadimi, tibb elmləri doktoru, akademik, görkəmli oftalmoloq-alim, ictimai xadim Zərifə xanım Əliyevaya əbədiyaşarlıq qazandıran onun nəcib niyyəti, xeyirxah əməlləri, vətən naminə gördükləri böyük işlərdir.

Zərifə Əliyevanın zəngin elmi fəaliyyəti, qazandığı uğurlar barədə məruzə ilə çıxış edən Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, millət vəkili, siyasi elmlər doktoru, professor Aqiyə Naxçıvanlı qeyd etdi ki, Zərifə xanım Əliyevaya həmkarlarının, yetirmələrinin, xəstələrinin hörmət və məhəbbətini qazandıran onun həkim fədakarlığı, yüksək vətəndaşlıq mövqeyi, səmimiyyəti, insanlara qayğısı idi. Son dərəcə xeyirxah insan olan Zərifə xanım Əliyeva yaşamaqdan, işləməkdən xüsusi zövq alırdı, nikbin insan idi, ətrafında xeyirxahlıq və etimad ab-havası yaratmaq üçün çox çalışırdı. Bu parlaq şəxsiyyət xeyrin təntənəsi, xalqın xoşbəxtliyi üçün əlindən gələni edirdi. İnsanlara təmənnasız sevinc bəxş edən Zərifə xanım vəfalı, sədaqətli ömür-gün yoldaşı, humanist, alicənab bir qadın kimi hər bir azərbaycanlının yaddaşında yaşayır. Xalqımız qəlblərdə dərin iz salmış bu müdrik insanın nurlu xatirəsini həmişə əziz tutur.

Məruzə ətrafında Milli Məclisin deputatları Sədaqət Vəliyeva, Dilarə Cəbrayılova, Ağacan Abiyev, Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov, Azərbaycan qadın və inkişaf mərkəzinin Suraxanı rayon bölməsinin sədri Şövkət Xanməmmədova, 8 saylı Birləşmiş Uşaq Xəstəxanasının baş həkimi Sədaqət Şahi, 232 saylı tam orta məktəbin direktoru Məhluqə Əzizova çıxış etdi.

Konfransın işini yekunlaşdıran rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov qeyd etdi ki, Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Amma bu adların sırasında ən şərəflisi Ana adıdır.

Zərifə xanım Azərbaycana cənab İlham Əliyev kimi Prezident bəxş edən bir ana olaraq hər zaman tarixdə qalacaqdır. Ölkəmizin sürətli inkişafı, dünyadakı nüfuzu, möhtəşəm uğurları ilə fəxr edərkən, Azərbaycan Prezidentinin bilik və bacarığının, qətiyyət və müdrikliyinin təməlində ulu öndər Heydər Əliyev ilə yanaşı, sözsüz ki, Zərifə xanımın da əməyi böyükdür.

İstər ümummilli lider Heydər Əliyevin, istərsə də ömür-gün yoldaşı, akademik Zərifə xanım Əliyevanın həyata keçməyən ideyalarının gerçəkləşməsində möhtərəm Prezidentimiz cənab İlham Əliyevlə birgə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da yaxından iştirak edir.

Akademik Zərifə xanım Əliyevanın işıqlı obrazı heç zaman ürəklərdən silinməyəcəkdir.

Konfransın sonunda Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Aqiyə Naxçıvanlıya Heydər Əliyev Mərkəzinin xatirə hədiyyəsi təqdim olundu.

Tədbir bədii hissə ilə yekunlaşdı.

**Mehparə ƏLİYEVA, "Respublika".**

*Ziyad Səmədzadə:*

# Azərbaycan beynəlxalq münasibətlərin ən fəal aktorlarından birinə çevrilir

**Bu gün Azərbaycan dünyanın dinamik inkişaf edən ölkələrindən biridir. Prezident İlham Əliyevin seçkilərdə inamlı qələbəsi və bu münasibətlə dövlətimizin başçısının ünvanına gələn təbriklər bir daha sübut edir ki, qloballaşan dünyada risklərin çoxaldığı, münaqişələrin dərinləşdiyi bir şəraitdə Azərbaycan dövlətinin nüfuzu daha da artır və ölkəmiz beynəlxalq münasibətlərin ən fəal aktorlarından birinə çevrilir. Azərbaycan irimiqyaslı, böyük gələcəyi olan layihələr həyata keçirir, dünyanın aparıcı dövlətləri ilə formalaşmış əməkdaşlığı daha da inkişaf etdirir.**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin iqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri Ziyad Səmədzadə bildirib.

Azərbaycan Prezidentinin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfərinin böyük maraq doğurduğunu qeyd edən komitə sədri vurğulayıb ki, Azərbaycanın dünyanın aparıcı şirkətlərindən olan BP ilə əməkdaşlığı yeni keyfiyyət mərhələsinə qədəm qoyur. "Böyük Britaniyada keçirilən görüşlərdə Azərbaycana və onun Prezidentinə olan səmimi dostluq münasibətlərinin şahidi olduq. Bu səfər ölkələrimiz arasında tərəfdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğunu nümayiş etdirir. Xüsusilə qeyd etmək istərdim ki, Prezident İlham Əliyevin Böyük Britaniyanın Baş naziri xanım Tereza Mey ilə görüşü zamanı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR, "BP Exploration (Azerbaijan) Limited" şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv blokunun birgə kəşfiyyatı və işlənilməsi üzrə hasilatın pay bölgüsü haqqında sazişin imzalanması, həmçinin hazırda həyata keçirilən Cənub Qaz Dəhlizi, TAP, TANAP və digər bu kimi layihələr bir daha Azərbaycanın dünyanın enerji siyasətində önəmli rol oynayan ölkə olduğunu sübut edir. Azərbaycanın apardığı bu siyasət ölkəmizin milli maraqlarına və beynəlxalq əməkdaşlığın inkişafına xidmət edir. Bütün bunlar Azərbaycanın dinamik və keyfiyyətli inkişafının



uzun illər davam etməsini təmin edəcək",- deyə Ziyad Səmədzadə vurğulayıb.

**AZƏRTAC**

*Giorgi Çerkezişvili:*

# Həyata keçirdiyimiz layihələr təkcə bizim deyil, Avropanın və Asiyanın inkişafında da mühüm rol oynayır

**Azərbaycan, Gürcüstan və Türkiyə strateji tərəfdaş olaraq birgə həyata keçirdikləri irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələri həyata keçirirlər. Bu layihələr təkcə bu üç ölkənin deyil, Avropanın və Asiyanın inkişafında mühüm rol oynayır.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Giorgi Çerkezişvili jurnalistlərə açıqlamasında deyib.

Nazir müavini deyib ki, Türkiyənin Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin (MÜSİAD) Gürcüstan şöbəsinin açılması, əslində, hər üç ölkənin iqtisadi maraqlarına xidmət edir.

"MÜSİAD xarici investisiyaların cəlb olunmasında mühüm rol oynayır. Düşünürəm ki, bu qurumun Azərbaycan, Gürcüstan və Türkiyədəki şöbələrinin köməyi ilə biz iqtisadiyyatımıza daha çox sərmayə cəlb edə biləcəyik. Bu, həm də daha irimiqyaslı layihələr həyata keçirməyimizə imkan yaradacaq", - deyə G.Çerkezişvili vurğulayıb.

**AZƏRTAC**

*Piter Kropş:*

# Çox şadam ki, AZƏRTAC Avropa Xəbər Agentlikləri Alyansının fəal üzvüdür

**Çox şadam ki, AZƏRTAC Avropa Xəbər Agentlikləri Alyansının (EANA) fəal üzvüdür. Dünyanın müxtəlif ölkələrində və cəmiyyətlərində boşluqların olduğu bir vaxtda belə alyanslar mühüm körpü rolunu oynayır.**

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Almaniyanın DPA agentliyinin prezidenti Piter Kropş deyib.

Avropanın nüfuzlu KİV nümayəndələrinin ildə iki dəfə EANA konfransları çərçivəsində toplaşdıqlarını söyləyən Piter Kropş belə tədbirlərin ötən müddət ərzində informasiya sahəsində yaranmış problemlərin həlli, fikir mübadiləsi aparılması baxımından əhəmiyyətinə toxunub: "Müzakirə edəcəyimiz bir çox mühüm məsələlər var. Medianın gələcəyi sadə, eyni zamanda, çox mürəkkəbdir. Müstəqil mediaya böyük tələbat var. Media informasiyanın yayılmasını asanlaşdırır. Maliyyələşməni təmin etmək üçün çox iş görməliyik".

Müstəqil və plüralist medianın demokratik cəmiyyət üçün yeganə yol olduğunu vurğulayan Piter Kropş istənilən ölkənin mediasının bu çağırışa cavab verməsinin zəruriliyini bildirib: "AZƏRTAC-ın fəaliyyətini və beynəlxalq media qurumlarının inkişafına verdiyi töhfələri yüksək dəyərləndirirəm. Əlbəttə, qarşımızda hələ uzun yol var. Dialoq inkişaf üçün mühüm şərtdir".

Piter Kropş Dünya Xəbər Agentliklərinin Bakıda AZƏRTAC-ın ev sahibliyi ilə keçirilən V Konqresinin media sahəsində təcrübə mübadiləsi aparılmasında mühüm platforma olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, Konqresin materiallarının kitab halında nəşr olunması təqdirəlayiqdir. Müasir medianın aktual problemləri, jurnalistikanın üzləşdiyi çağırışlarla bağlı müzakirələrin, çıxışların bir arada toplanması faydalı olmaqla yanaşı, dünya xəbər agentlikləri arasında dialoqun və əməkdaşlığın inkişafı baxımından da diqqəti cəlb edir.

Xatırladaq ki, aprelin 26-da Ruminiyanın paytaxtı Buxarestdə EANA-nın "Xəbər agentlikləri və dəyişən market: Yeni inkişaf edən məzmun üçün strategiyalar" mövzusunda konfrans keçirilib. Avropanın 30-dan çox xəbər agentliyinin nümayəndələrinin iştirak etdiyi konfransda AZƏRTAC da təmsil olunub.



**AZƏRTAC**

# Müdrik alim, qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı

## *Akademik Zərifə xanım Əliyevanın əziz xatirəsi anadan olmasının 95-ci il dönümündə sonsuz məhəbbətlə yad edilir...*

**Elə şəxsiyyətlər var ki, onların ömür yolu haqqında söhbət açarkən istər-istəməz hansısa tarixi dövrün müəyyən ənənələrinin formalaşması prosesinin də iştirakçısına çevrilmiş olursan. Hər bir millət üçün fəxr olunası haldır ki, mənsub olduğu millətin tarixində unudulmaz şəxslər yaşayıb, yaradıb. Elə şəxslər ki, onların xalqı qarşısındakı xidmətləri əvəzolunmazdır. Belə insanlar həmin zirvəni qeyri-adi əməksevərliyi, təmənnasız xeyirxahlığı, fitri istedad, nadir bilik və qabiliyyətləri hesabına fəth edirlər. Məhz belə insanlardan biri də humanist insan, görkəmli ictimai xadim, oftalmoloq-alim Zərifə xanım Əliyevadır.**



Zərifə xanım özünün çoxillik fəaliyyəti dövründə neçə-neçə gözə şəfa bəxş etmiş, ən ağır, mürəkkəb əməliyyatlar aparmış, görmə qabiliyyəti zəif olanların, yaxud tamamilə görməyənlərin qaranlıq dünyasını işıqlandırmışdı. Bu işdə ona təkcə biliyi, savadı və səriştəsi deyil, həm də gendən və böyüdüyü ailədən irəli gələn yüksək keyfiyyətlər dəstəkçi olurdu. Doğulub boya-başa çatdığı mühitin onun taleyində böyük rolu olmuşdur. Zərifə xanım Əliyeva atasının - görkəmli dövlət və elm xadimi, pedaqoq-alim, professor Əziz Əliyevin yolunu davam etdirmişdi. Azərbaycan səhiyyə sisteminin inkişafında misilsiz xidmətləri olan Əziz Əliyev yüksək intellekti ilə onu əhatə edənlərin dərin rəğbət və hörmətini qazanmışdı. O, özünün şəxsi nümunəsi ilə övladlarına mübariz olmağı aşılamış, gələcəyə ümid, inam bəsləməyi öyrətmiş, hər zaman hamıya xeyirxah, qayğıkeş münasibətdə olmağı tövsiyə etmişdi. Əziz Əliyev möhkəm iradəyə, böyük təmkinə malik güclü şəxsiyyət idi. Həyatının bütün mürəkkəb mərhələləri əslində onun övladları üçün həyat məktəbi idi. Belə bir ailədə böyüyən Zərifə xanım, təbii ki, səmimiyyəti, zərifliyi, insanlara olan sevgisi ilə fərqlənirdi. Ailəyə məxsus ziyalılıq, əməksevərlik, səmimilik, doğma ocağa, xalqa və Vətənə məhəbbət onun həyatında öz təcəssümünü tapmışdı.

Zərifə xanım, eyni zamanda, müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin — ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Zərifə xanım, eyni zamanda, qayğıkeş ana idi. İncə təbiətli bu kövrək qadın öz zərif çiyinlərində dünya şöhrətli siyasətçinin inam və etibarını hər addımda doğrultmuşdu. Ən ağır və təhlükəli vaxtlarda belə Zərifə xanım həyat yoldaşını bir an belə tək qoymamış, onun dayağına çevrilmişdi.

Onun öz ailəsi üçün necə əvəzsiz dəyər kəsb etdiyini həyat yoldaşı — ulu öndər Heydər Əliyev özü də dəfələrlə söyləyib. "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar".

Cəmiyyətin həyatında fəal rol oynayan Zərifə xanım ailəsinə son dərəcə bağlı bir qadın, gözəl ana idi. Öz analıq missiyasını sevdiyi peşəsi ilə birləşdirən bu xanımı bir qadın, bir alim və həkim kimi cəmiyyətin inkişafına xidmət edən ailəsindən ayrı düşünmək olmazdı. Zərifə xanım analıq vəzifəsinin öhdəsindən də çox gözəl gəlmişdir. Onun təmkinliliyi, səbirliliyi, ağlı, savadı və digər müsbət xüsusiyyətləri övladları - cənab Prezident İlham Əliyevin və tarix üzrə fəlsəfə doktoru Sevil Əliyevanın da onun yolunu getməsinə köməkçi olmuşdu. Biz, bu ailəyə - ulu öndər Heydər Əliyevə və Zərifə xanım Əliyevaya minnətdarıq ki, qəlblərində daim Azərbaycan sevgisi ilə yaşayan, Vətənimizin qüruru sayılan övladlar yetişdirmişlər. Yüksək keyfiyyətlərin mövcud olduğu belə bir ailədə İlham Əliyev kimi övladın böyüyüb boya-başa çatması, tərbiyə alması hər valideynin, ailənin arzusudur. Bu gün cənab Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu dövlət siyasəti nəticəsində dövlətimizin dayaqları möhkəmlənir, Azərbaycan daha da çiçəklənib qüdrətli bir ölkəyə çevrilir. Təsadüfi deyil ki, bir neçə gün əvvəl keçirilən növbəti prezident seçkilərində seçicilərin böyük əksəriyyətinin səs çoxluğu ilə qalib gələn İlham Əliyev növbəti illər üçün yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi. Xalqımızın Prezidentə olan bu etimadı ölkəmizin inkişafının davamlılığını təmin edir.

Xeyirxahlığına, yüksək intellektinə, diqqət və qayğısına görə hər bir kəsin hörmət və məhəbbətini qazanmış bu insan, ilk növbədə böyük ziyalı, işıqlı, nurlu şəxsiyyət idi. Zərifə xanım Əliyeva Azərbaycanın səhiyyə sahəsində silinməz iz buraxmışdır. O, Azərbaycan tibb elminin inkişafına böyük töhfə verən akademik olub. Onun həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri zəngin və çoxşaxəlidir. Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator bir alim idi. Zərifə xanım haqlı olaraq hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".

Zərifə xanım Əliyevanın elmi-tədqiqatlara olan sonsuz marağı onu Oftalmologiya Elmi-Tədqiqat İnstitutuna gətirib çıxarmışdı. O, bu ixtisası seçərkən ölkə əhalisinin bu sahəyə böyük ehtiyacı olduğunu düşünmüş və Vətənə bu istiqamətdə daha çox xeyir verəcəyini fikirləşərək bu addımı atmışdı. Həmin illərdə Azərbaycanda gözü zədələyən, hətta tam korluğa səbəb olan traxoma göz xəstəliyinə qarşı təsirli müalicə üsulları yox idi. Bu xəstəliklə mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə Respublikanın səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Zərifə xanım Əliyeva elmi-pedaqoji fəaliyyətində təkcə elmi-tədqiqat işləri aparmaqla kifayətlənməmiş, eyni zamanda, yüksək ixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftolmoloq-həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirmişdir. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim oftalmoloqların böyük bir nəsli yetişmişdir. Zərifə xanım tələbələrinə zəngin həyat təcrübəsi öyrətmiş, onlara xüsusi diqqət və qayğı ilə yanaşmışdır. Bu gün onun yetişdirdiyi kadrlar insanlara sağlamlıq bəxş edir. Zərifə xanımın həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi qayğı, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazanmışdır. Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilmişdir. Zərifə xanım bir sıra orden və medallara layiq görülmüş, Azərbaycanın Əməkdar elm xadimi fəxri adını almışdır.

Təsadüfi deyil ki, dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım haqqında tarixi sözlər demişlər. Məşhur oftalmoloq, akademik A.Nesterov demişdir: "Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli idi". Qeyd etmək yerinə düşər ki, Zərifə xanım Azərbaycanda oftalmologiya sahəsində ilk akademik qadın olmuşdur. Bütün bunlarla yanaşı, Zərifə xanım uzun müddət Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan "Bilik" Cəmiyyətinin üzvü, Oftalmoloqların Elmi Cəmiyyətinin Rəyasət Heyətinin üzvü, "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Əlbəttə, bütün bunlar çoxlu enerji tələb edirdi, lakin Zərifə xanım təbiəti üçün adi hal idi. Zərifə xanım eyni zamanda, ədəbiyyatı, musiqini də çox sevirdi. Onun ədəbiyyat sahəsindəki bilikləri, incəsənət, xüsusilə, təsviri incəsənət, rəsm əsərləri haqqında mülahizələri adamı heyrətləndirməyə bilməzdi.

Zərifə xanım bir həkim, alim və vətəndaş kimi bütün ömrü boyu xalqı üçün çalışmışdı və onun bir həkim kimi səhiyyənin inkişafında oynadığı rol, insanların sağlamlığı yolunda gördüyü işlər, o cümlədən, bir qadın və ana kimi ideal olması və digər onun haqqındakı əbədi xatirələr xalqın yaddaşında daim yaşayır. Bu gün onun müqəddəs ailə çırağını iki gözəl övladı, nəvələri yandırırlar. Xalqa xidmət amalını bir ailə ənənəsi kimi yaşadan Prezident İlham Əliyev Zərifə xanımı dərin ehtiramla xatırlayaraq demişdir: "Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük lider, ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur". Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva Zərifə xanımın ənənələrini davam etdirir. Yüksək dəyərləri öz şəxsiyyətində birləşdirmiş Mehriban xanım milli-mənəvi sərvətlərimizin qoruyucusudur. O, Azərbaycanda təhsilin, səhiyyənin, mədəniyyətin və digər sahələrin inkişafı üçün əlindən gələni edir. Özünün ictimai fəallığı və şəxsi örnəyi ilə müasir Azərbaycan qadınını bütün dünyada ləyaqətlə təmsil edir, Azərbaycan ailəsinin yüksək mənəvi dəyərlərə söykəndiyini və ümumbəşəri ideallar əsasında yaşadığını təcəssüm etdirir.

Zərifə xanım Əliyeva adına Milli Oftalmologiya Mərkəzi, Naxçıvan şəhər poliklinikası, Akademik Zərifə Əliyeva adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu, adına küçələr, xəstəxanalar, körpələr evi, təlim-təhsil ocaqları və s. onun adının əbədiləşdirilməsinin layiqli göstəricisi, ona qoyulan hörmətin, bəslənilən rəğbətin, göstərilən ehtiramın nəticəsidir. Bakıda müasir Oftalmologiya Mərkəzinin yaradılması Zərifə xanımın çoxdankı arzularından idi. Oftalmologiya Mərkəzi görmə qabiliyyətində problem olan hər kəsin pənah gətirdiyi yerdir. Klinikanın fəaliyyəti dövründə respublikamızın şəhər və rayonlarından gələn yüz minlərlə xəstəyə yüksək səviyyəli xidmət göstərilmişdir. O cümlədən, yaşadığı müddətdə respublikamızın ən yüksək keyfiyyətli oftalmoloji avadanlıqlarla təchiz edilməsində də Zərifə xanımın misilsiz xidmətləri olmuşdur.

Zərifə Əliyevanın adını əbədiləşdirmək, bu görkəmli qadının xalqımız yolundakı fədakarlığını qiymətləndirmək naminə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də öz növbəsində mütəmadi təlimlər, müsabiqələr, maarifləndirici kampaniyalar həyata keçirir. Müsabiqələrin keçirilməsində məqsəd gənc dostlarımızın, məktəblilərimizin belə ziyalıların, alim və ictimai xadimlərin həyat və yaradıcılığını öyrənməsi, onlardan nümunə götürülməsidir.

Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir insan kimi yaratdığı dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Tibb aləmində bir çox yeniliklərə imza atmış, Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan, yüksək intellekt sahibi, yorulmaz alim, akademik, tibb elmləri doktoru, professor Zərifə xanım Əliyevanın elmdə açdığı yol ildən-ilə inkişaf edir, onun yazıb-yaratdığı monumental əsərləri, qoyub-getdiyi elmi nailiyyətləri, pedaqoqluq səriştəsi, mədəni irsi daim araşdırılır, öyrənilir, neçə-neçə tədqiqat əsərlərinin mövzusuna çevrilir. Onun zəngin elmi irsi, oftolmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. İnsanlara bitib-tükənməyən sevgi, məhəbbət dolu geniş ürəyə sahib olan, gözlərə işıq, nur bəxş edən, Vətən təəssübünü bütün doğrulardan üstün tutmağı bacaran, özünün fitri istedadı ilə elmin, insanlığın ən yüksək zirvəsinə ucalan akademik Zərifə xanım Əliyeva bu xüsusiyyətləri ilə həm müasir gənclərə, həm də gələcək nəsillərə nümunə və örnəkdir.

Zərifə xanım Əliyevanın adı bu gün də Azərbaycanda fəxrlə, sonsuz qürur hissi ilə səslənir. Ölkəmizdə ana adının ucalığı, ömür-gün yoldaşının sədaqəti, həkimliyin müqəddəsliyi onun adı ilə əbədiləşir. Ömrünü insanların sağlamlığının qorunmasına həsr etmiş bu nəcib xanım, məhz bütün keyfiyyətlərinə görə hər zaman, hər kəs tərəfindən sevilir, əziz xatirəsi ehtiramla yad edilir.

**Hicran HÜSEYNOVA,**
**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər doktoru, professor.**

## Görkəmli oftalmoloq Zərifə Əliyevanın xatirəsi yad edildi

**Görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95 illik yubileyi münasibəti ilə Dövlət Sərhəd Xidmətinin bütün hərbi hissə və bölmələrində təntənəli tədbirlər keçirilmişdir. Dövlət Sərhəd Xidmətinin qadın hərbi qulluqçuları ənənəvi olaraq Fəxri xiyabanda olmuş, alimin məzarı önünə tər çiçək dəstələri düzmüşlər.**





Dövlət Sərhəd Xidmətinin Aparatında dünya şöhrətli alim, ictimai xadim Zərifə xanım Əliyevanın həyat və fəaliyyətini əks etdirən fotosərgi ilə tanışlıqdan sonra rəsmi mərasim keçirilmişdir.

Tədbirdə millət vəkili, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri namizədi Elmira Axundova minlərlə insanın gözlərinə nur bəxş etmiş istedadlı alim, bacarıqlı pedaqoq Zərifə xanım Əliyevanın zəngin və mənalı ömür yolu barədə geniş məlumat vermişdir. Qeyd edilmişdir ki, Zərifə xanım elm üçün gözəl tədqiqatçı, ulu öndər Heydər Əliyev üçün ömür-gün yoldaşı, sadiq dost, övladları üçün qayğıkeş ana və ən yüksək mənəvi keyfiyyətlərə malik olan nəcib bir xanım idi. Zərifə xanımın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər Azərbaycan tibb elminin parlaq səhifələridir. Onun elmi fəaliyyətinin nəticələri 150-dən artıq əsərdə, 10 monoqrafiyada, həkimlər üçün dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodiki tövsiyələrdə öz əksini tapmışdır. Göz xəstəlikləri üzrə elmi-tədqiqat işləri akademik Zərifə xanım Əliyevaya böyük şöhrət gətirmiş və onu dünya oftalmologiyası məkanında məhşurlaşdırmışdır.

Fundamental elmi tədqiqatları ilə oftalmologiyanın inkişafına böyük töhfələr verən akademik Zərifə xanım Əliyeva SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülən ilk qadın olmuşdur. Akademik Zərifə xanım Əliyeva həm də böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü olmuş, "Əməkdar Elm Xadimi" fəxri adınalayiq görülmüşdür.

Tədbirin sonunda rejissor Vaqif Mustafayevin "Heydər Əliyev. Əsl məhəbbət haqqında" sənədli filmi nümayiş etdirilmişdir.

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**

## Ağ xalatın cazibə qüvvəsi

**O, ötən əsrin 60-cı illərdə görmə üzvünün peşə xəstəlikləri problemi üzrə geniş elmi axtarışlara başlayıb. O vaxtadək sənaye zərərlərinin görmə orqanına toksik təsirinin öyrənilməsinə bir sıra elmi əsərlər həsr edilsə, inkişaf etmiş ölkələrdə şin və yod istehsalı yüksək səviyyədə olsa da, bu sahələrdə istehsal tullantılarının görmə orqanına toksik təsiri demək olar ki, çox az öyrənilmişdi. Ona görə də oftalmoloq-alimin elmi tədqiqatlarının əsas istiqamətlərindən biri də yod və şin sənayesinin zərərli təsirlərindən gözün zədələnməsinin öyrənilməsi olub. Dünya ədəbiyyatında həmin fundamental tədqiqatın analoqu yoxdur.**





AZƏRTAC xəbər verir ki, bu barədə Mərkəzi Klinikada akademik Zərifə Əliyevanın anadan olmasının 95 illiyinə həsr olunmuş tədbirdə danışılıb.

Klinikanın baş direktoru, Əməkdar Həkim İxtiyar Sultanov görkəmli oftalmoloqun elmi axtarışlarının əsas mövzusu olan Azərbaycanın kimya sənayesinin bəzi sahələrində çalışan fəhlələrin görmə orqanının vəziyyətini tədqiqi barədə tədqiqatlarından danışaraq bildirib ki, həmin tədqiqatların yekunu kimi Zərifə Əliyeva 1976-cı ildə "Azərbaycanda kimya sənayesinin bəzi müəssisələrində işçilərin görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

Oftalmoloq Arzu Eyvazova və epidemoloq Yaqut Qarayeva görkəmli dövlət xadimi və böyük səhiyyə təşkilatçısı Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanımın həkimlik etikası, nəcib və xeyirxah peşəsi ilə insanlara kömək etmək, gözlərə işıq bəxş etmək kimi missiyanı ləyaqətlə daşıması barədə söhbət açıb, onun gözün peşə patologiyasına həsr olunmuş "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası şəraitində gözün patologiyası", "Yod istehsalında gözün peşə xəstəliklərinin profilaktikası", "Görmə üzvünün peşə xəstəlikləri" adlı monoqrafiyalarına və digər əsərlərinin elmi əhəmiyyəti və həmin əsərlərin dünyanın görkəmli alimləri arasında layiqli yer tutması barədə danışıblar. Çıxış edənlər Zərifə Əliyevanın layiqli ömür-gün yoldaşı, qayğıkeş ana, hamıya can yandıran xeyirxah bir insan kimi yüksək keyfiyyətlərindən də bəhs ediblər.

Xatirə tədbirinin sonunda Zərifə Əliyevaya həsr olunmuş sənədli film nümayiş olunub.

**AZƏRTAC**

## Akademik Zərifə xanım Əliyevanın 95 illik yubileyinə həsr olunmuş tədbir

**Bakı Mühəndislik Universitetində görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın 95 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə universitetin professor-müəllim heyəti, tələbələr və eləcə də akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin aparıcı elmi işçisi Nübar Haşımova və Azərbaycan Respublikası Qadınlar Şurasının sədri Bahar Qasımova iştirak ediblər.**

Tədbirdə ilk öncə akademik Zərifə Əliyevanın xatirəsi bir dəqiqəlik sükutla yad edilib və ardından onun həyat və fəaliyyətinə həsr olunan film nümayiş olunub.

Açılış nitqi ilə çıxış edən universitetin rektoru, professor Havar Məmmədov Zərifə xanım Əliyevanın həyatı, elmi və yaradıcılıq fəaliyyəti haqqında geniş məlumat verib. Bildirib ki, akademik Zərifə Əliyeva gözəl ana, vəfalı ömür-gün yoldaşı, intellektual keyfiyyətləri özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq alim olub.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin aparıcı elmi işçisi Nübar Haşımova çıxışında onu şəxsən tanıdığını və Zərifə Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olduğunu qeyd edib.

Azərbaycan Respublikası Qadınlar Şurasının sədri Bahar Qasımova akademik Zərifə Əliyevanın elmi fəaliyyəti ilə yanaşı, xeyirxahlıq fəaliyyətindən də danışıb. Qeyd edib ki, Zərifə xanım xanımlar üçün nümunədir. Bahar Qasımova rəhbərlik etdiyi qurumun Zərifə xanım Əliyevanın 95 illik yubileyi münasibətilə keçirdiyi tədbirlər barədə də məlumat verdi.

Sonda tədbirin təşkilatçısı Bakı Mühəndislik Universitetinin Qadınlar Şurasının sədri Ətrabə Gül yeni yaradılan şuranın ilk təbirləri olduğunu bildirdi. Qeyd etdi ki, universitetdə işləyən və oxuyan xanımlar elmi və ictimai fəaliyyətlərində akademik Zərifə Əliyevanı özlərinə örnək bilərək ölkəmizin inkişafına töhfə verəcəklər.

**M.MİRZƏ,**
**"Respublika".**

## Gəncədə "Zəriflik" Beynəlxalq Musiqi Festivalı çərçivəsində ilk konsert təşkil olunub

**Aprelin 27-də Gəncə şəhərində görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş "Zəriflik" Beynəlxalq Musiqi Festivalı çərçivəsində ilk konsert təşkil olunub.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Mədəniyyət Nazirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən festivalın ilk konserti Gəncə Dövlət Filarmoniyasının kamera zalında baş tutub. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli belə beynəlxalq musiqi festivalının Gəncədə keçirilməsini şəhərin ictimai həyatında ən böyük mədəniyyət hadisəsi kimi dəyərləndirib. Qeyd edilib ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində öz inkişafının müasir mərhələsinə qədəm qoyan Gəncədə son illərdə bir çox mədəniyyət mərkəzləri istifadəyə verilib. Məhz bu cür mərkəzlərdən biri də ötən il dövlətimizin başçısının iştirakı ilə istifadəyə verilən Gəncə Dövlət Filarmoniyasıdır. Möhtəşəm memarlıq üslubu ilə istər yerli, istərsə də əcnəbi qonaqlara xoş təsir bağışlayan bu əzəmətli mədəniyyət mərkəzində hər cür beynəlxalq tədbirləri keçirmək mümkündür. Gəncə Dövlət Filarmoniyasını, onun memarlıq üslubunu, daxili tərtibatını, eləcə də səs akustikasını dünyanın bir çox möhtəşəm konsert zalları ilə müqayisə edən Fərhad Bədəlbəyli belə bir filarmoniyada çıxış etməyin hər bir musiqiçinin arzusu olduğunu deyib.

Sonra festival çərçivəsində ilk konsert olub.

Konsertdə Murad Adıgözəlzadə (piano), Fəridə Rüstəmova (violin), İlahə Sadıqzadə (piano), Fəridə Məmmədova (soprono), Şükür Səmədov (klarnet), Fərhad Bədəlbəyli (piano), Olqa Naqornaya (soprano, Ukrayna), Dmitri Yablonski (çello, ABŞ), İqor Korostılyov (bas, Rusiya), Aleksandr Anasenko (piano, Rusiya) Anastasiya Barun (soprano, Rusiya) çıxış ediblər. Bundan başqa, konsertdə klassik bəstəkarlar Cüzeppe Verdi, Yohans Brams, Qabriel Fore, Jorj Beze, Sergey Raxmaninov, Kamil Sen-Sansın əsərləri və Ukrayna xalq mahnıları səsləndirilib.

Aprelin 30-dək davam edəcək festivalda Azərbaycan, Rusiya, ABŞ Ukrayna, Gürcüstandan olan görkəmli musiqiçilər, bədii kollektivlər, solistlər, dirijorlar iştirak edəcəklər. Festivalda Rusiya Federasiyası Dövlət Akademik Böyük Teatrının kollektivi ilə təmsil olunacaq. Festivalın bədii rəhbəri SSRİ Xalq Artisti, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəylidir.

**AZƏRTAC**

# Mir Cəlal - 110: Kiçik hekayənin böyük ustası





**Kiçik hekayənin böyük ustası. Aprelin 27-də ADA Universitetində görkəmli yazıçı və alim Mir Cəlal Paşayevin anadan olmasının 110-cu ildönümü ilə bağlı keçirilən tədbir belə adlanırdı. Tələbələr tədbirdə böyük ədibin Azərbaycan və ingilis dillərində səhnələşdirdikləri hekayələrini təqdim ediblər.**

AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları Mir Cəlal Paşayevin həyat yoluna və zəngin yaradıcılığına nəzər salıblar. Bildirilib ki, Azərbaycan ədəbiyyatında Mir Cəlalın bədii və elmi irsinin xüsusi yeri var. İstedadlı yazıçı ədəbiyyat xəzinəmizi dəyərli nəsr nümunələri ilə daha da zənginləşdirib. Onun həm hekayələri, həm də “Bir gəncin manifesti” povesti, “Dirilən adam” romanı və digər əsərləri hər zaman sevilə-sevilə oxunur.

ADA Universitetinin və Milli Aviasiya Akademiyasının tələbələri ədibin hekayələrini böyük ustalıqla səhnələşdiriblər. Mir Cəlalın “İclas qurusu”, “Salamın neçə növü var” və “Xarici naxoşluq” hekayələrinin səhnə təcəssümü alqışlarla qarşılanıb.

Tədbirdə yazıçının “Kəmtərovlar ailəsi” hekayəsinin motivləri əsasında lentə alınan “İki yad adam” qısametrajlı filmi də nümayiş etdirilib. Bu film Çin Xalq Respublikasında keçirilən beynəlxalq kinofestivalda “Qrand Asiya” mükafatına layiq görülüb. Bu barədə filmi hazırlayan “Addım” Gənclər Təşkilatının rəhbəri Hüseyn Cavadzadə məlumat verib və mükafat “Ədibin evi”ndə saxlanılması üçün ADA Universitetinin rektoru Hafiz Paşayevə təqdim edilib.

Səhnəyə dəvət edilən yaradıcı heyət “İki yad adam” filminin Qazaxıstanda və Gürcüstanda da böyük sevgi ilə qarşılandığını bildiriblər.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru Fərəh Əliyeva deyib ki, zaman dəyişsə də, Mir Cəlal yaradıcılığındakı dəyərlər dəyişmir, bu gün də öz aktuallığını saxlayır.

“Ədəbiyyat tarixin özündən daha tarixidir, çünki orada həyat var”, - deyən ədəbiyyatşünas alim Nizami Cəfərov bildirib ki, ədəbi mühitdə Mir Cəlal Paşayevin əsərləri sosial həyatın içərisindən gəldiyinə görə bu gün də yaşayır. Ədibin 292 hekayəsi qeydə alınıb və onlar indi də maraqla oxunur. Çünki “Ədəbiyyat ədəb sözündən götürülüb” deyən Mir Cəlalın istər ədəbi dilində, istərsə də əsərlərinin süjet xəttində biz bu dəyəri görürük.

Yazıçının oğlu, ADA Universitetinin rektoru Hafiz Paşayev hələ sovetlər dönəmindən Mir Cəlalın hekayələrinin səhnələşdirildiyini, tədris üçün hər zaman yararlı olduğunu deyib. Qeyd edib ki, tarixi ədəbiyyat vasitəsilə öyrənəndə yaddaşlarda daha yaxşı qalır. Həm də gənclər kiçik hekayələr oxumaqla daha böyük əsərləri oxumaq vərdişi qazanırlar.

**AZƏRTAC**

# AXC-nin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans

Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birgə keçirdiyi professor-müəllim heyətinin, doktorantların və gənc tədqiqatçıların Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransı davam edir. Kiyev Milli İnşaat və Memarlıq Universiteti, Ufa Dövlət Texniki Universitetinin Memarlıq-İnşaat İnstitutundan və digər universitetlərdən, ölkəmizin aparıcı ali təhsil müəssisələrindən mütəxəssislərin iştirak etdiyi konfransa 100-dən çox elm adamı qatılıb. Konfransda, eyni zamanda, dövlət qurumlarından, Respublika Seysmoloji Xidmət Mərkəzindən, AMEA-nın Geologiya və Geofizika İnstitutu, Torpaqşünaslıq və Aqrokimya İnstitutu, İqtisadiyyat İnstitutundan nümayəndələr iştirak ediblər.

Tədbir iştirakçıları öncə ulu öndər Heydər Əliyevin universitetin həyatində ucaldılmış abidəsi önünə gələrək xatirəsini yad edib, büstü qarşısına tər güllər düzüblər.





Konfransda çıxış edən Təhsil Nazirliyinin nümayəndəsi Yaşar Ömərov, Kiyev Milli İnşaat və Memarlıq Universitetinin İnnovativ Təhsil İnstitutunun direktoru A.Mixalçenko, Ufa Dövlət Texniki Universitetinin Memarlıq-İnşaat İnstitutunun direktoru D.Kuznetsov konfransın işinə uğurlar arzulayıblar.

Sonra konfansın plenar məruzələri dinlənilib. Təşkilat komitəsinin sədri, AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova Azərbaycan Xalq Cümhuriyyəti: “Şərqin ilk demokratik Respublikası” adlı məruzəsində 1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş verdiyini, müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğunu bildirib. Rektor çıxışında qeyd edib ki, cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tariximizdə silinməz izlər qoyub, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlayıb. Azərbaycanın ilk universiteti təsis olunub, təhsil milliləşdirilib, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan əhəmiyyətli işlər görülüb. Ölkə başçısı tərəfindən 2018-ci ilin “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan olunduğunu və bu təşəbbüsün hər bir soydaşımız tərəfindən böyük rəğbətlə qarşılandığını söyləyib.

AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Misir Mərdanov “Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində” məruzəsində qeyd edib ki, AXC fəaliyyəti müddətində bir çox sahələrdə mühüm addımlar atıb. Milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları qurulub. Maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirilib. AXC-nin təhsil sahəsində həyata keçirdiyi ilk tədbirlərdən biri də Hökumətin 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan (türk) dilinin dövlət dili elan edilməsi təşəbbüsü olub. Azərbaycan Hökuməti ilk günlərdən başlayaraq, milli kadrların hazırlanması, bu sahədə təhsilin tamamilə yenidən qurulmasına xüsusi əhəmiyyət verib. AXC-nin təhsil sahəsində həyata keçirdiyi ilk və ən mühüm tədbirlərdən biri də məktəblərin milliləşdirilməsi olub.

Sonra konfrans işini bölmələrdə davam etdirib. Ümumilikdə, 8 bölmə iclasında keçirilən konfransda Azərbaycan, rus və ingilis dillərində 174 məruzə dinlənilib.

**Ramiz YUSİFLİ,**
**“Respublika”.**

# UNEC-də konfrans: “İnnovasiya əsaslı iqtisadi inkişaf: sahibkarlıq, təhsil və elm”

**UNEC-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan “İnnovasiya əsaslı iqtisadi inkişaf: sahibkarlıq, təhsil və elm” mövzusunda respublika elmi-praktiki konfransı keçirilib.**

Biznes və menecment fakültəsinin təşkilatçılığı ilə keçirilən konfransda UNEC-in professor-müəllim heyətilə yanaşı, dövlət qurumlarının nümayəndələri, sahibkarlar, iş adamları, gənc tədqiqatçı və tələbələr iştirak ediblər.

Konfrans öz işinə dövlət himninin səsləndirilməsi ilə başlayıb. Fakültənin dekanı, dosent Mirağa Əhmədov Prezident İlham Əliyevin Fərmanı ilə təsdiq edilən “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”nin ölkədə iqtisadi və sosial baxımdan daha səmərəli ali təhsil sisteminin formalaşdırılması prosesini sürətləndirdiyini bildirib. Ölkədə həyata keçirilən islahatların prioritet istiqamətinin rəqabətədavamlı milli innovasiya sisteminin yaradılması olduğunu vurğulayan M.Əhmədov innovasiya siyasətinin yeni bilik və texnologiyaların istehsalı və tətbiqi ilə yanaşı, elm və təhsilin davamlı inkişafının bərqərar edilməsinə yönəlməli olduğunu bildirib. Dünya dövlətlərində universitetlərin elm mərkəzləri, sahibkarlıq institutları kimi formalaşdığını və təhsilin elmi innovasiyalar əsasında qurulduğunu vurğulayan dekan UNEC-də son dövrlərdə bu istiqamətdə atılan uğurlu addımları diqqətə çatdırıb. M.Əhmədov müəllim və tələbələri innovativ layihələr hazırlamağa cəlb etmək, onların ideyalarını dəstəkləmək



məqsədilə UNEC-də iqtisadiyyatın müxtəlif sahələri üzrə bir çox tədqiqat mərkəzlərinin, o cümlədən İnnovativ Biznes İnkubatoru (İBİ) və UNEC Biznes Mərkəzinin fəaliyyət göstərdiyini qeyd edib. Fakültə dekanı Azərbaycanda ilk dəfə olaraq həyata keçirilən və ictimaiyyətdə geniş rezonans doğuran “UNEC2B” platformasına da diqqət çəkib. Bildirib ki, UNEC-in iş dünyası ilə strateji əməkdaşlıq platforması tədrisin əmək bazarının tələblərinə uyğunlaşdırılması, sahibkarlıq universiteti modelinin yaradılması ilə yanaşı, Azərbaycanda öz məzunlarına görə, məsuliyyət daşıyan universitet anlayışını da tamamilə yeniləyir.

UNEC-in Elm şöbəsinin müdiri, professor Zahid Məmmədov elm, təhsil və sahibkarlıq universitetlərinin vəzifələrindən söz açıb. UNEC-in məhz bu kontekstdə dünya təhsil xidmətləri bazarında rəqabətqabiliyyətli brend universitet yaratdığını, yüksəkixtisaslı iqtisadçı və menecerlər hazırladığını, fundamental və tətbiqi elmi tədqiqatlar apadığını, iş dünyası ilə sıx əməkdaşlıq qurduğunu qeyd edib. UNEC-də son 4 ildə aparılan elmi fəaliyyətə nəzər salan professor, bu müddət ərzində həmin sahədə yüksək nailiyyətlər əldə edildiyini bildirib. Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse prezidenti Vüqar Zeynalov ölkə iqtisadiyyatının inkişafı üçün sahibkarlarla ali təhsil müəssisələri arasındakı əlaqələrin daha sıx qurulmasının əhəmiyyətindən bəhs edib. Biznes qurumlarının rəhbərləri ölkədə sahibkarlar üçün yaradılan əlverişli investisiya mühitindən və bu hədəflərə uyğun təhsil sahəsində aparılan islahatların özəl sektorun inkişafına müsbət təsirlərindən danışıb. Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev ali təhsildə innovasiya və özəl sektorun inkişafı üçün tələb olunan kadrlarla bağlı vəziyyəti qiymətləndirib, sahibkarlıq və innovasiyaların dəstəklənməsi yolu ilə ali təhsilin ölkənin iqtisadi inkişafındakı rolundan bəhs edib. Bakı Tekstil Fabrikinin Baş direktoru Elçin Babayev ali təhsil müəssisələri ilə iş dünyası arasında əməkdaşlığın tələbələrin gələcəkdə təcrübəli kadr kimi yetişməsində əvəzsiz rol oynadığını qeyd edərək, UNEC-lə əməkdaşlığın hər iki sektor üçün əhəmiyyətli olacağını vurğulayıb.

Çıxışlardan sonra konfrans öz işini bölmə iclaslarında davam etdirib. Sonda məruzəçilərə sertifikatlar təqdim olunub.

**Amalya ƏBDÜLƏLİQIZI,**
**“Respublika”.**

*Reportaj*

# Onlar Vətənin ərazi bütövlüyünü qoruyacaqlar

**Dünyada müstəqil dövlətimizin nüfuzu və hörməti artdıqca, gənclərimizin də sabaha, gələcəyə inamı artır. Aparılan islahatlar bir daha sübut edir ki, Azərbaycan tərəqqi və inkişaf yolundadır.**

Son illərin ən böyük nailiyyətlərindən biri də müstəqil dövlətimizin güclü ordusunun yaranması, formalaşması və qüdrətlənməsidir. Silahlı Qüvvələrə layiqli oğulların hazırlanması, çağırışçı və çağırışaqədərki gənclərlə məqsədyönlü iş aparılması günümüzün vacib məsələlərindəndir. Fərəhlə qeyd olunmalıdır ki, son illər paytaxtın Xəzər rayonunda bu sahədə təqdirəlayiq işlər görülür. Vətənpərvər gənclər yetişdirilir, onlar Vətənimizin salnaməsinə parlaq və yaddaqalan səhifələr yazırlar.

Ölkəmizdə gənclərin növbəti həqiqi xidmətə çağırışına başlanmışdır. Vətənə sipər oğulların ordu sıralarına yola salınması Xəzər rayonunda yüksək səviyyədə keçir, müharibə və əmək veteranları, valideynlər, müəllimlər Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İdarəsində keçirilən mərasimdə yüksək əhval-ruhiyyə ilə iştirak edirlər.

Biz qəlbləri oxşayan bir yaz səhərində, hər tərəfin gözəlliyə qərq olunduğu bir vaxtda rayonda gənclərin hərbi xidmətə yolasalınma mərasimində iştirak etdik. Milli musiqimiz dalğa-dalğa ətrafa yayılır, sabahın əsgərləri tədbir iştirakçıları ilə yaşıllıqlar qoynunda xatirə şəkilləri çəkdirir, hiss olunurdu ki, gənclər qüdrətli Azərbaycan ordusunda şərəflə qulluq edəcək, Vətənimizin ərazi bütövlüyünü ləyaqətlə qoruyacaqlar.

Gənclərin bir dəstəsi idarənin Həqiqi Hərbi Xidmətə Çağırış şöbəsinin rəisi, mayor Rahim Ağayevi dövrəyə almışlar. Təcrübəli zabit əllərində üçrəngli Azərbaycan bayrağını dalğalandıran gənclərə öz tövsiyələrini verir, məsləhət görürdü ki, onlar xidmət dövründə mətin və mübariz olsunlar, ata-babaların şanlı döyüş ənənələrinə sadiqlik nümayiş etdirsinlər.

Gənclərin həqiqi hərbi xidmətə yolsalınma mərasimində çıxış edən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xəzər rayon idarəsinin rəisi, polkovnik-leytenant Kənan Məmmədov ilk öncə mərasimə qatılan çoxsaylı insanları salamladı, daha sonra qəlbindən süzülüb gələn xoş sözləri onlarla yarı böldü:

—Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim əsas amallarımızdan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün hazırlanması əsas vəzifələrdən biridir və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik.

Müasir, mütəşəkkil ordunu yaratmaq ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. Bu gün Azərbaycanın güclü ordusu vardır. Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur.

Ordu müstəqil Azərbaycanın ən mühüm atributlarından biridir. Son illərdə ordu quruculuğu ilə bağlı strateji xətt Azərbaycanda prioritet istiqamətlərdən biri olaraq qalır.

Orduda islahatların aparılması və hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsi ölkə rəhbərinin daim diqqət mərkəzindədir. Güclü iqtisadi potensial və güclü ordu Azərbaycanın bölgədə lider ölkə olmasını şərtləndirən amillərdəndir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin belə bir fikrini xatırlamaq yerinə düşərdi: **“Azərbaycan xalqı gözləməlidir? Nə vaxta qədər biz gözləməliyik ki, haqq-ədalət bərpa olunsun? Bir halda ki, Ermənistan tərəfi beynəlxalq normalara məhəl qoymur, beynəlxalq təsisatların qərarlarına riayət etmir. Azərbaycan xalqının səbri tükənməz deyildir. Biz**



**son illərdə ordu quruculuğuna çox böyük diqqət yetirmişik... Bizim əsas vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü istənilən yolla bərpa etməkdir”.**

Siz bu gün əsgəri xidmətə yola düşürsünüz. Hamınızın baxışından coşqu, Vətən sevgisi duyulur, əminliklə demək olar ki, siz ordu sıralarında Vətənimizin ərazi bütövlüyünü, suverenliyini ləyaqətlə qoruya biləcəksiniz.

Gənclərin hərbi xidmətə yolsalma mərasimində İlqar Süleymanzadə valideynlər adından çıxış edərək dedi:

—Biz qüdrətli Azərbaycan ordusu ilə fəxr edirik. Azərbaycan müharibə şəraitində yaşayır. Bizim torpaqlarımız işğal altındadır və belə olan halda orduya diqqət ən yüksək səviyyədədir. Aprel döyüşlərində Azərbaycan ordusu öz gücünü, qüdrətini bir daha erməni faşistlərinə nümayiş etdirdi, düşmən ağır itki verdi. Siz əmin ola bilərsiniz ki, zaman bizim xeyrimizə işləyir, çox tezliklə işğal altında olan ərazilərimiz azad olunacaq, daşnak quldurlar öz mənfur niyyətlərini həyata keçirə bilməyəcəklər.

İnsanlarda xoş ovqat yaradan bir yaz günündə gənclərdən Arif Əliyev, Nicat Məmmədov, Kamran Əsgərzadə, Süleyman Süleymanzadə və başqaları avtobuslarda öz yerlərini tutub, mərasim iştirakçılarının xeyir-duası ilə ordu sıralarına yollandı...

**Qədir ASLAN,**
**“Respublika”.**

# Ağsuda əsgəri xidmətə yolasalma mərasimi





Ağsuda gənclərin həqiqi hərbi xidmətə yola salınma mərasimi yüksək təntənə ilə keçir.

Vətənə xidmət etmək üçün yola salınan hər bir gənci valideynləri ilə yanaşı, qohum-əqrəbası, dost-tanışları, yaxın adamları müşayiət edirdilər.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağsu Rayon Şöbəsinin qarşısında toplaşmış çoxsaylı tədbir iştirakçıları əvvəlcə xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin Ağsu şəhərinin mərkəzindəki meydanda ucaldılmış əzəmətli abidəsini ziyarət etdilər, abidənin önünə tər çiçəklər düzərək hörmət və ehtiramlarını bildirdilər.

Sonra mərasim iştirakçıları torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə həlak olaraq şəhidlik zirvəsinə ucalmış şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Təntənəli mərasimi giriş sözü ilə açan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağsu Rayon Şöbəsinin rəisi, polkovnik-leytenant Nizami Heybətov həqiqi hərbi xidmətə yola düşən gəncləri təbrik etdi və onların Vətənin müdafiəsi kimi müqəddəs bir amal uğrunda səfərbər olduqlarını bildirdi.

Şöbənin rəisi daha sonra qeyd etdi ki, ordumuzun hərbi qüdrətinin günbəgün artdığını vurğulayan Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan cənab İlham Əliyev demişdir: “...Biz son illər ərzində güclü hərbi potensial yarada bilmişik, o potensial ki, bu gün Azərbaycan Ordusunu dünya miqyasında güclü ordular sırasına daxil edibdir. Bunu beynəlxalq məsələ ilə məşğul olan bütün qurumlar, reytinqlər təsdiqləyir. Biz bundan sonra da ən müasir silah, sursat, texnika alacağıq ki, daim hərbi üstünlük təmin edilsin, necə ki bu gün bu təmin edilir.

Bu il Azərbaycan Ordusu genişmiqyaslı hərbi təlimlər keçirmişdir. Bu təlimlər bir daha bizim gücümüzü göstərdi, düşməni qorxuya saldı. Bilirik ki, bir neçə gün ərzində onlar panika içərisində idilər, səbirsizliklə gözləyirdilər ki, bu təlimlər başa çatsın. Yəni bu, artıq reallıqdır, həqiqətdir. Hərbi amil münaqişənin həlli üçün mühüm rol oynayır və biz bundan sonra da hərbi potensialımızı gücləndirəcəyik”.

Sonra natiq üzünü gənclərə tutaraq vurğuladı ki, bu gün hər biriniz yaxşı başa düşürsünüz ki, torpaqlarımızın 20 faizi düşmən nəzarəti altındadır. Bu isə o deməkdir ki, bir an belə sayıqlığımızı itirməməliyik. Hər an Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin əmrinə hazır olmalıyıq.

Sizin hər biriniz yaxşı başa düşməlidir ki, Vətənimizin bir qarış torpağının belə düşmən tapdağında qalmaması naminə Silahlı Qüvvələrimizin şəxsi heyəti əllərindən gələni əsirgəmir. Bu gün ordumuzun ən müasir tələblər səviyyəsində qurulmasından, döyüş əzminin günbəgün artırılmasından hər birimiz haqlı olaraq fəxr edir, qürur duyuruq.

Azərbaycan ordusunun dünyanın ən qabaqcıl ordularından biri kimi formalaşması üçün ölkəmizin rəhbəri, Ali Baş Komandanımız cənab İlham Əliyev tərəfindən böyük diqqət və qayğı göstərilir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağsu Rayon Şöbəsinin rəisi, polkovnik-leytenant Nizami Heybətov yolasalma mərasimində iştirak edən Ağsu Rayon İcra Hakimiyyəti Aparatının məsul işçilərinə, rayonun idarə, müəssisə və təşkilatlarının rəhbərlərinə, müharibə və əmək veteranlarına, gənclər təşkilatının nümayəndələrinə öz minnətdarlığını bildirdi.

Bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi sayəsində ordumuz dünyanın ən qabaqcıl orduları səviyyəsinə yüksəlmişdir. Xalq öz ordusuna inanır, ona güvənir. Bu gün Azərbaycan ordusunun istifadəsində olan ən müasir silahlar, müxtəlif döyüş texnikaları, təyyarələr, raketlər və onlarca hərbi sursatlar mənfur düşmənləri hər an məhv etməyə kifayət edər.

Yolasalma mərasimində çıxış edən Böyük Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Ağsu Rayon Şöbəsinin sədri Cəmaləddin Zeynalov isə qeyd etdi ki, az bir vaxtdan sonra biz, bütün tərəqqipərvər bəşəriyyət alman faşizmi üzərində qələbənin 73-cü ildönümünü qeyd edəcəkdir. Bizim hamımız bu tarixi qələbənin sevincini yaşayacağıq. Gün o gün olsun ki, Azərbaycan bayrağı tarixi torpaqlarımızda - müvəqqəti olaraq düşmən tapdağında olan Qarabağımızda dalğalansın.

Sonda çağırışçılardan İsmayıl Həşimli çıxış edərək vətənə layiqli əsgər olacağına, orduda nizam-intizamla xidmət edəcəyinə söz verdi.

Sonra əzəmətli hərbi marşın sədaları altında həri xidmətə gedən gənclər onlar üçün ayrılmış maşınlarla hərbi hissələrə yola düşdü.

**İlham PƏNAHOV,**
**“Respublika”.**

# Bakıda keçirilən bədii gimnastika üzrə altıncı Dünya Kuboku yarışının təntənəli açılışı olub

**Aprelin 27-də Milli Gimnastika Arenasında Bakıda keçirilən bədii gimnastika üzrə altıncı Dünya Kuboku yarışının təntənəli açılış mərasimi olub.**




AZƏRTAC xəbər verir ki, əvvəlcə iştirakçıların paradı keçirilib.

Açılış mərasimində çıxış edən Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev Azərbaycanın növbəti dəfə mötəbər yarışa ev sahibliyi etməsindən məmnunluğunu diqqətə çatdıraraq, idmançılara uğurlar arzulayıb. Y.Məmmədəliyev qeyd edib ki, Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Ölkəmiz irimiqyaslı beynəlxalq turnirlərə yüksək səviyyədə ev sahibliyi edir, idmançılarımız Azərbaycanı beynəlxalq arenada layiqincə təmsil edirlər. Bütün bunlar beynəlxalq idman qurumlarının diqqətindən yayınmır və onlar nüfuzlu yarışların təşkilini heç bir tərəddüd etmədən ölkəmizə həvalə edirlər. Bu günlərdə paytaxtımızda daha bir mötəbər tədbir Formula 1 yarışlarının keçirildiyini diqqətə çatdıran Yusuf Məmmədəliyev dünyanın ən tanınmış pilotlarının Bakıda güclərini sınadıqlarını vurğulayıb.

Yusuf Məmmədəliyev əminliklə bildirib ki, ölkəmiz həmişə olduğu kimi, bu dəfə də qonaqpərvərliyi və yüksək səviyyəli təşkilatçılıq bacarığı ilə yaddaşlarda qalacaq.

"Son illər qızların sevimli idman növünə çevrilmiş bədii gimnastikaya maraq gündən günə artmaqda davam edir. Azərbaycanda artıq formalaşmış gimnastika məktəbi var. Bunun nəticəsidir ki, gimnastlarımız artıq beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edir, yaxşı nəticələr göstərirlər", - deyə Yusuf Məmmədəliyev qeyd edib.

Prezident Administrasiyasının şöbə müdiri bildirib ki, dövlətimizin başçısı İlham Əliyevin ölkəmizdə digər sahələrdə olduğu kimi, gənclər və idman sahəsində həyata keçirdiyi uğurlu siyasətin nəticəsində Azərbaycanda idmanın digər növləri kimi, gimnastika da sürətlə inkişaf edir. Mehriban Əliyevanın Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilməsindən sonra bu təşkilatın yenidən qurulduğunu, gimnastikanın inkişafında dönüş yarandığını vurğulayan Y.Məmmədəliyev hazırda Azərbaycanda gimnastikanın bütün növlərinin sürətlə inkişaf etdiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın ölkəmizdə idmana göstərdikləri yüksək diqqət və qayğıdan danışan Yusuf Məmmədəliyev bədii gimnastika üzrə Dünya Kuboku yarışının təşkilinin Azərbaycanda gimnastikanın inkişafına töhfə verəcəyini qeyd edib. Mötəbər turnirdə 25 ölkənin təmsil olunduğunu vurğulayan şöbə müdiri iştirakçılara uğurla arzulayıb, yarışı açıq elan edib.

Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Bəşəriyyətin yaradılışında mühüm rol oynayan Su, Od, Yel və Torpaq ünsürləri bu turnirin açılış mərasiminin bədii hissəsinin əsas komponentlərini təşkil edib. Qədim dövrdən bu günə kimi haqqında bir çox hekayələr qoşulan bu ünsürlər gimnastların təqdimatında yeni nəfəslə tamaşaçılara təqdim olunub. Kompozisiyanın quruluşçu rejissorları fəlsəfi ideyalardan ilhamlamaraq, həyati əhəmiyyət daşıyan bu komponentlərin təkcə Yer kürəsinin yaradılışında deyil, idmanda da nümayiş etdiriblər.




Müasir işıq effektlərinin, böyük monitorda yayımlanan təsvirlərin, hərəkətli musiqi parçalarının mükəmməl vəhdətinin yaratdığı möhtəşəm şou tamaşaçıların böyük marağına səbəb olub. Möhtəşəm kompozisiyada həmişə olduğu kimi, gimnastika növləri üzrə milli komandaların üzvləri və xoreoqrafları iştirak ediblər.

Yarışın ən maraqlı personaji Bakıda keçirilmiş batut gimnastikası, ikili mini batut və tamblinq üzrə 26-cı Avropa çempionatının maskotu - "Qur-Qur" tamaşaçılarla görüşə gəlib. Hər zaman fərqliliyə üstünlük verən təşkilatçılar maskot olaraq seçilmiş qurbağanı canlandırmaq üçün peşəkarlara müraciət ediblər. Uzun illər talisman kimi fəaliyyət göstərən və çempionata batut gimnastikasının vətəni ABŞ-dan təşrif buyuran Skot Hesinqton və Berri Anderson dördgünlük yarışlar ərzində arenanın sakinlərinə unudulmaz şou vəd ediblər.

**AZƏRTAC**

# Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin may ayında şəhər və rayonlarda vətəndaşların qəbulu CƏDVƏLİ

| Mərkəzi icra hakimiyyəti orqanı | Qəbul günü | Qəbulun keçirildiyi şəhər | Əhatə olunan şəhər və rayonlar |
|---|---|---|---|
| **Ramin Quluzadə** **nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri** | 04 | Ağdaş | Ağdaş, Mingəçevir, Kürdəmir, Ucar, Göyçay |
| **Azad Rəhimov** **gənclər və idman naziri** | 07 | Qəbələ | Qəbələ, Şəki, Oğuz, İsmayıllı, Qax, Zaqatala, Balakən |
| **Oqtay Şirəliyev** **səhiyyə naziri** | 11 | Sabirabad | Sabirabad, Şirvan, Hacıqabul, Saatlı |
| **Hicran Hüseynova** **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** | 11 | Saatlı | Saatlı, Şirvan, Sabirabad, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl |
| **Kərəm Həsənov** **Əmlak Məsələləri Dövlət Komitəsinin sədri** | 12 | Cəlilabad | Cəlilabad, Biləsuvar, Masallı, Yardımlı |
| **Fikrət Məmmədov** **ədliyyə naziri** | 16 | Salyan | Salyan, Neftçala, Hacıqabul |
| **Arzu Rəhimov** **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** | 17 | Samux | Samux, Gəncə, Mingəçevir, Naftalan, Göygöl, Daşkəsən, Goranboy |
| **Sahil Babayev** **əmək və əhalinin sosial müdafiəsi naziri** | 18 | Mingəçevir | Mingəçevir, Naftalan, Yevlax, Ağdaş, Goranboy |
| **Şahin Mustafayev** **iqtisadiyyat naziri** | 18 | Göygöl | Göygöl, Gəncə, Daşkəsən |
| **İnam Kərimov** **kənd təsərrüfatı naziri** | 18 | Yevlax | Yevlax, Goranboy, Göygöl, Daşkəsən, Samux |
| **Mikayıl Cabbarov** **vergilər naziri** | 19 | Şamaxı | Şamaxı, Ağsu, Qobustan |
| **Ceyhun Bayramov** **Təhsil naziri** | 21 | Xızı | Xızı, Siyəzən, Şabran, Quba, Qusar, Xaçmaz |
| **Mübariz Qurbanlı** **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** | 22 | Balakən | Balakən, Zaqatala, Qax |
| **Zakir Qaralov** **Baş prokuror** | 25 | Masallı | Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı |
| **Muxtar Babayev** **ekologiya və təbii sərvətlər naziri** | 25 | Bərdə | Bərdə, Ağdam, Ağcabədi, Tərtər |
| **Kəmaləddin Heydərov** **fövqəladə hallar naziri** | 25 | Ağstafa | Ağstafa, Qazax, Tovuz, Şəmkir |
| **Əbülfəs Qarayev** **mədəniyyət naziri** | 25 | Salyan | Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl |
| **Məleykə Abbaszadə** **Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Direktorlar Şurasının sədri** | 25 | İsmayıllı | İsmayıllı, Qəbələ, Şamaxı, Qobustan |
| **Ramil Usubov** **daxili işlər naziri** | 26 | Bərdə | Bərdə, Naftalan, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Xocalı |
| **Səfər Mehdiyev** **Dövlət Gömrük Komitəsinin sədri** | 29 | Tovuz | Tovuz, Şəmkir, Gədəbəy, Ağstafa, Qazax |
| **Rövşən Rzayev** **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** | 30 | Laçın (Taxtakörpü) | Laçın (Taxtakörpü), Ağcabədi, Bərdə |

**Qeyd:** *Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanının səlahiyyətlərinə aid olmalıdır.*

# Formula 1 Azərbaycan Qran-Prisinin birinci günündə pilotlar arasında gərgin idman mübarizəsi yaşanıb

**Aprelin 27-də Bakıda Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinə - Azərbaycan Qran-Prisinə start verilib.**

AZƏRTAC xəbər verir ki, yarışın birinci günündə pilotlar 6 kilometrlik Bakı şəhər halqasında iki sərbəst yürüşdə güclərini sınayıblar.




Birinci sərbəst yürüşdə "Mercedes" komandasının pilotu Valtteri Bottas qalib gəlib. O, 1 dəqiqə 44,242 saniyəlik nəticə ilə bütün rəqiblərini qabaqlayıb. "Red Bull Racing" komandasının sürücüsü Daniel Rikkiardo ikinci olub. Serxio Peres ("Force İndia") isə yarışı üçüncü pillədə başa vurub.

"Red Bull Racing"in pilotu Daniel Rikkardo ikinci sərbəst yürüşdə fərqlənməyi bacarıb. Pilot 1 dəqiqə 42,795 saniyəlik nəticə ilə birinci olub. "Ferrari"nin pilotu Kimi Raykonnen ikinci, "Red Bull Racing"in digər sürücüsü Maks Ferstappen üçüncü olublar.

Aprelin 28-də Formula 1 Azərbaycan Qran-Prisində üçüncü sərbəst yürüş və sıralama turu, bir gün sonra isə əsas yarış keçiriləcək.

Dünyanın məşhur pilotlarının mübarizə apardığı Bakı şəhər halqası elə qurulub ki, yarış zamanı pilotlar və milyonlarla televiziya tamaşaçıları UNESCO-nun ümumdünya mədəni irs siyahısına daxil olan İçərişəhəri, paytaxtın müasir memarlıq abidələrini və Xəzərin sahilboyu hissəsini özündə birləşdirən ecazkar mənzərəni görə bilirlər. Layihənin müəllifi bütün müasir Formula 1 treklərinin memarı olan Herman Tilkedir. Trekin ən geniş hissəsinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

Yarışın start və finiş xətti Azadlıq meydanındadır. Burada, həmçinin "Paddok klub", komandaların boksları və pitleyn qurulub.

**AZƏRTAC**

*İdman*

# Güləşçimiz erməni rəqibini 60 saniyəyə məğlub etdi

"Təhsil" Respublika İdman Mərkəzinin Lənkəran Şəhər Uşaq Gənclər İdman Məktəbinin yetirməsi Hüseyn Ağayev Gürcüstanın Kutaisi şəhərində keçirilən beynəlxalq turnirdə ardıcıl iki erməni güləşçini məğlub edərək turnirin qalibi olub. İki gün davam edən yarışda 4 lənkəranlı güləşçi iştirak edib. Lənkəranlı güləşçilərdən Yusif Mirzəyev 22, Ramazan Hüseynov 29, Hüseyn Ağayev 32 və Alişan Verdiyev 35 kiloqram çəki dərəcələrində güclərini sınayıblar. Onlardan ikisi birinci, ikisi isə üçüncü yeri tutub.

Turnirdə Hüseyn Ağayevin çıxışı xüsusilə yaddaqalan olub. Yarımfinalda erməni rəqibini mübarizədən kənarlaşdıraraq finala yüksələn lənkəranlı idmançı bu uğuru final görüşündə də təkrarlayıb. O, erməni rəqibini cəmi 60 saniyəyə məğlub edib.

Oxucularımız adından idmançılarımızı təbrik edir, onlara yeni-yeni qələbələr arzulayırıq.

**R.YUSİFLİ, "Respublika".**




## ❑ CƏNUBİ VƏ ŞİMALİ KOREYA LİDERLƏRİ ARASINDA BƏYANNAMƏ İMZALANDI



Aprelin 27-də Koreya Respublikasının prezidenti Mun Çje İn və Şimali Koreya Xalq Demokratik Respublikasının lideri Kim Çen In birgə Bəyannamə imzalayıblar. "APA"nın verdiyi xəbərə görə, sənəd belə adlanır: "Sülh, inkişaf və Koreya yarımadasının birləşməsi haqqında Pxanmundjom Bəyannaməsi".

Məlumata əsasən, dövlət başçıları hər iki ölkənin ümumi məqsədinin Koreya yarımadasında denuklearizasiya, yəni nüvə tərksilahının aparılması olduğunu təsdiqləyiblər. Bəyannamədə qeyd olunur: "Cənub və Şimal tərəfi Koreya yarımadasının denuklearizasiyası məsələsində beynəlxalq ictimaiyyətlə əməkdaşlıq üçün fəal səylər göstərmək barədə razılığa gəldilər".

Bununla yanaşı, bəyannamədə bildirilir ki, Cənubi Koreya və KXDR bir-birinə qarşı düşmənçilik fəaliyyətlərini dayandırırlar: "Koreya yarımadasında bir daha heç vaxt müharibə olmayacaq, yeni sülh dönəmi başlayıb!".

Həmçinin ölkələr sərhəd rayonlarında təbliğat məqsədilə istifadə etdikləri bütün fiziki vasitələri ləğv etmək barədə razılığa gəliblər: "Biz istənilən düşmənçilik fəaliyyətindən imtina edirik. Bu, mayın 1-də baş verəcək və təbliğat yayımı vasitələrinin ləğvini, eləcə də demilitarizasiya zonasında vərəqələrin yayılmasının tam dayandırılmasını ehtiva edəcək".

Eyni zamanda, hər iki ölkə başçısı daimi əlaqə saxlamaq qərarına gəlib. Onlar 1950-53-cü illər Koreya müharibəsindən sonra ayrılmış ailələrin görüşlərinin bərpası haqda da razılığa gəliblər. "Cənub və Şimal xalqın parçalanmasından yaranan humanitar problemləri həll edəcəklər. Bu məqsədlə Qırmızı Xaç Cəmiyyətinin xətti ilə dialoq və ayrı düşmüş ailələrin görüşü təmin olunacaq. Növbəti görüş avqustun 15-də keçiriləcək", - deyə bəyannamədə qeyd olunur.

Verilən xəbərə görə, tərəflər iki ölkənin dəmir yollarının birləşdirilməsi barədə də razılıq əldə ediblər.

Məlumata görə, Cənub və Şimal perspektivdə sülh müqaviləsi imzalamaq niyyətindədir: "KXDR və Koreya Respublikası 1953-cü ildən bəri davam edən atəşkəs razılaşmasına son qoyuraq onu sülh müqaviləsinə transformasiya edəcəklər. Bu məqsədlə Şimali Koreya, Cənubi Koreya və ABŞ möhkəm sülhün bərqərar olması üçün üçtərəfli və ya dördtərəfli sammitin keçirilməsini dəstəkləyəcəklər".

## ❑ BELÇİKADA SURİYA İLƏ BAĞLI BEYNƏLXALQ KONFRANS KEÇİRİLİB




Belçikanın paytaxtı Brüsseldə Avropa Birliyi və BMT-nin təşkilatçılığı ilə Suriya üzrə beynəlxalq konfrans keçirilib. "APA"nın verdiyi məlumata görə, konfransda 57 ölkə iştirak edib.

Xəbər verilir ki, konfransın qəbul etdiyi yekun bəyanatda Suriyanın suverenliyi və ərazi bütövlüyünə dəstək verildiyi təsdiqlənib.

Sənəddə deyilir: "Konfrans BMT Təhlükəsizlik Şurasının 2254 saylı qətnaməsi və Cenevrə Kommünikesinə uyğun olaraq yalnız hərtərəfli və həqiqi siyasi həllin Suriya münaqişəsinin dayandırılması və regionda gərginliyin qarşısının alınmasını təmin edəcəyini təsdiqləyir".

Eyni zamanda, Avropa diplomatiyasının rəhbəri Federika Mogerini və BMT baş katibinin Suriya üzrə xüsusi elçisi Staffan de Mistura birgə bəyanatla çıxış edərək Suriyadakı vəziyyətin Beynəlxalq Cinayət Məhkəməsinə verilməsinin tərəfdarı olduğunu bəyan ediblər. Bəyanatda deyilir: "Hərbi cinayətlər, beynəlxalq humanitar hüquq və insan haqlarının pozulması halları araşdırılmalıdır".

## ❑ PENTAQON: SURİYA VƏ İRAQA YENİDƏN HƏRBİ MÜDAXİLƏ EDƏCƏYİK



Pentaqon rəhbəri Ceyms Mettis Türkiyə ilə bağlı açıqlama verib. "APA"nın Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə, Ceyms Mettis İsrailin müdafiə naziri Aviqdor Libermanla görüşündə Türkiyənin Rusiyadan "S-400" raket kompleksi alması barədə sualı cavablandırıb: "Bu məsələ artıq bir çox narahatlıqlara səbəb olur. Türkiyə NATO ölkəsidir. NATO ölkələri içərisində isə "S-400"lərin alınması ilə bağlı ciddi narazılıqlar var".

Eyni zamanda, Ceyms Mettis ABŞ-ın Suriyadan nə vaxt çıxacağı məsələsinə də aydınlıq gətirib. O deyib: "Suriyadan hazırda çıxmaq fikrimiz yoxdur. İŞİD-lə mübarizə davam edir. Bu mübarizəyə isə digər müttəfiqlərimizi də cəlb edirik. Bölgəyə əlavə qüvvələr gətiriləcək".

Pentaqon rəhbəri yaxın zamanda İraq sərhədlərində də yeni əməliyyatlara başlayacaqlarını bildirib. "Qarşıdakı günlərdə Orta Fərat Vadisi istiqamətində yeni və gücləndirilmiş əməliyyatlarımızın şahidi olacaqsınız. Suriya-İraq sərhədində də aktivlik göstərəcəyik. Son iki həftə ərzində əməliyyatlarımızda Fransa hərbi qüvvələrinin iştirakına görə isə təşəkkürümü bildirirəm", - deyə Ceyms Mettis qeyd edib.

İrana qarşı gələcəkdə hansı addımların atılacağı ilə bağlı suala isə C.Mettis "hələlik yekun qərar verilməyib, İranla nüvə razılaşması davam edir, müzakirələr aparılır" cavabını verib və əlavə edib ki, istənilən halda ABŞ-ın maraqları müdafiə olunacaq.

Bununla yanaşı, ABŞ-ın müdafiə naziri İsrailin bölgədə ABŞ-ın ən yaxın müttəfiqi olduğunu və İsrailə qarşı İranın bütün addımlarına cavab veriləcəyini də bildirib.

Pentaqon rəhbəri həmçinin Bəşər Əsəd rejiminin Suriyanın cənubunda möhkəmlənməsindən narahat olduqlarını və bunun yolverilməz olduğunu dilə gətirib: "Son bir neçə il ərzində öz xalqına qarşı elədiklərini və Livanda "Hizbullah"a kömək etdiyini nəzərə alsaq, Bəşər Əsəd rejiminin varlığı və Suriyanın cənubunda möhkəmlənməsi İordaniya və İsrail üçün ciddi təhdiddir", - deyə Ceyms Mettis bəyan edib.

## ❑ RUSİYANIN ABŞ-dakı SƏFİRİ DONALD TRAMPIN MÜŞAVİRİ İLƏ GÖRÜŞÜB



Vaşinqtonda Rusiyanın ABŞ-dakı səfiri Anatoli Antonov və ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Bolton arasında görüş keçirilib. "APA"nın Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, tərəflər iki ölkə arasında münasibətləri müzakirə ediblər.

"Görüş konstruktiv mühitdə keçdi. Biz iki ölkə arasındakı əsas qıcıqlandırıcı məsələləri, həmçinin regional və qlobal təhlükəsizliyin bəzi aspektlərini müzakirə etdik", - deyə rusiyalı diplomat qeyd edib.

Eyni zamanda, Sietl şəhərində baş verən insidenti pisləyən səfir vurğulayıb ki, rəsmi Vaşinqtonun hərəkətləri bütün beynəlxalq Konvensiyalara ziddir.

Qeyd edək ki, aprelin 26-da ABŞ hökumət nümayəndələri Rusiyanın Sietl şəhərindəki Baş Konsulluğunun qapısının kilidini sındıraraq içəri daxil olublar. ABŞ bundan əvvəl "Skripal işi" ilə əlaqədar Böyük Britaniya ilə həmrəyliyini nümayiş etdirərək, Rusiyanın 60 diplomatını ölkədən çıxarıb və Rusiyanın Sietldəki Baş Konsulluğunu bağlayıb.

Xatırladaq ki, 2017-ci il, avqustun 31-də ABŞ Dövlət Departamenti ölkədəki Rusiya diplomatik nümayəndəliklərinin fəaliyyəti ilə bağlı yeni məhdudiyyətlər elan edib. Buna əsasən San-Fransiskodakı Rusiya Baş Konsulluğunun obyektləri bağlanıb.

## ❑ NİKOL PAŞİNYAN: YA MƏN, YA DA HEÇ KİM



Ermənistanda Serj Sarkisyan hakimiyyətinə qarşı etiraz hərəkatının lideri Nikol Paşinyan baş nazir vəzifəsinə xalq tərəfindən namizədliyinin irəli sürüldüyünü vurğulayaraq, parlament fraksiyalarının xalqın qərarına hörmətlə yanaşacağı və bu məsələdə konsensus əldə ediləcəyinə ümid etdiyini bildirib. Bu barədə "BBC" agentliyi məlumat yayıb.

Paşinyanın sözlərinə görə, məsələ onun baş nazir olub-olmamasında deyil, Ermənistanda korrupsiyaya batmış, qeyri-demokratik sistemin ləğv edilməsindədir. Onun sözlərinə görə, artıq bu gün müxtəlif məsələlərdə "sövdələşmə təklifləri, mesajları gəlir".

Nikol Paşinyan deyib: "Biz öz komandamızla müzakirə edib qərara gəlmişik ki, vəzifələr, portfellər ətrafında heç bir alver ola bilməz və xalq bilməlidir ki, biz heç bir xəlvəti sövdələşməyə getməyəcəyik. Xalqdan gizli heç bir sövdələşmə olmayacaq. Ya xalqın tələbi, köməkliyi və dəstəyi ilə mən baş nazir seçiləcəyəm, ya da Ermənistanda, ümumiyyətlə, baş nazir olmayacaq".

Məlumat üçün qeyd edək ki, baş nazir seçkisi ilə bağlı müzakirələr mayın 1-nə təyin edilmiş parlamentin xüsusi iclasında keçiriləcək. Namizədlər baş nazir Serj Sarkisyanın istefasından sonra 7 gün ərzində irəli sürülməlidir.

Nikol Paşinyanın namizədliyini onun rəhbərlik etdiyi "Yelk" fraksiyası irəli sürüb. Hakim "Respublika" partiyasının namizədi hələ elan olunmayıb.

Ermənistanda keçmiş prezident Serj Sarkisyanın baş nazir seçilməsinə etirazlar onu bu postdan istefa verməyə məcbur edib. Lakin Sarkisyanın rəhbərlik etdiyi partiya hələ də hakimiyyəti əlində saxladığı üçün Nikol Paşinyanın rəhbərliyi ilə Ermənistanın bir çox şəhərlərində etirazlar davam edir. ■

# Çovdar kəndində ağacəkmə aksiyası və iməcilik keçirilib

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti İqtisadiyyat Nazirliyinin Gəncə-Qazax regional bölməsi ilə birgə aprelin 27-də Daşkəsən rayonunun Çovdar kəndində ağacəkmə aksiyası və iməcilik keçirib.**



Aksiya çərçivəsində Çovdar filiz emalı sahəsi ərazisində 300-dən çox ağac və kol əkilmiş, Çovdar filiz emalı sahəsinin girişindən Quşçu kəndinədək olan yol ətrafı ərazi tullantılardan təmizlənmişdir. İməcilik zamanı toplanan plastik tullantılar və pet qablar ümumi tullantı həcmindən ayrılaraq təkrar emala təhvil verilmişdir. 100-dən çox insanın iştirak etdiyi tədbir bölgədə ekoloji tarazlığın qorunmasına töhfə vermək və əhalini bu işdə həmrəy olmağa çağırmaq məqsədilə keçirilmişdir.

Qeyd edək ki, "AzerGold" QSC ildə 2 dəfə olmaqla mütəmadi yaşıllaşdırma aksiyaları təşkil edir. Ümumilikdə, Çovdar filiz emalı sahəsində baş tutan yaşıllaşdırma tədbirləri zamanı 15 hektara yaxın ərazidə 7 mindən çox ağac və kol əkilmişdir. ■

# "İKT-də qızlar" günü münasibətilə Azercell-in Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinə ekskursiya

Aprel ayının sonuncu həftəsinin dördüncü günü bütün dünyada "İKT-də qızlar" günü kimi qeyd olunur. Bu gün Birləşmiş Millətlər Təşkilatının (BMT) İKT sahəsində ixtisaslaşdırılmış qurumu olan Beynəlxalq Telekommunikasiya İttifaqı tərəfindən 2010-cu ildə təsis edilib. Bunu nəzərə alaraq, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təşəbbüsü ilə qadınların İKT sahəsində rolunun artırılmasına dəstək məqsədilə 55 №-li tam orta məktəbin yuxarı sinfinin qız şagirdlərinin İKT sahəsində peşəkar kadrların yetişdirilməsində xüsusi rolu olan ölkənin lider mobil operatoru Azercell Telekom MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinə ekskursiyası təşkil olunub. Ekskursiya zamanı Azercell-in İnsan Qaynaqları Departamentinin əməkdaşları təqdimatlar keçirib, İKT sahəsində qadınlara dəstək məqsədilə həyata keçirilən layihələrdən və imkanlardan söz açıb; Tələbə Təqaüdü Proqramı, Təcrübə Proqramı, Yay-Qış məktəbləri barədə məlumat verib. Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin əməkdaşları öz fəaliyyəti, Startapların uğurları ilə məktəbliləri tanış edib. Tədbirin sonunda "İdea generation" mövzusunda seminar keçirilib. Bu seminar əsnasında məktəblilər qrup çalışması şəklində bir sahibkarın yanaşmasını öyrənərək innovativ prosesin təcrübəsini əldə ediblər.



Məlumat üçün bildirək ki, Qabaqcıl Texnologiyalar sahəsində daim öncül olan Azercell MMC qadınların İKT sahəsinə cəlb olunması və onların bu istiqamətdə inkişaf etməsi məqsədilə müxtəlif layihələr həyata keçirir. Layihələr çərçivəsində İT sahəsində çalışan xanımlar üçün müxtəlif proqramlar, görüşlər keçirilib, onlara İT əsasları, LİNUX, CİSCO, ORACLE kimi proqramlar haqqında seminarlar təşkil olunub.

Qeyd edək ki, Barama Mərkəzi fəaliyyətdə olduğu 9 il ərzində 70-dən çox startap layihəyə dəstək olub, onlardan 45-i uğurlu biznes qurub.

**Amalya ƏBDÜLƏLİQIZI,**
**"Respublika".**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

RESPUBLİKA

REKLAM VƏ ELAN XİDMƏTİ

441-20-23

## Azərbaycan Dövlət Aqrar Universiteti

*kafedralarda boş olan aşağıdakı vəzifələri tutmaq üçün*

## MÜSABİQƏ ELAN EDİR

| | |
|---|---|
| Kənd təsərrüfatı texnikası | dosent, 1 yer |
| Epizootologiya, mikrobiologiya və parazitologiya | dosent, 1 yer |
| Maşın mühəndisliyi və standartlaşdırma | dosent, 1 yer |
| Yerüstü nəqliyyat vasitələri və texniki servis | dosent, 1 yer |
| Elektrik mühəndisliyi | dosent, 1 yer |
| Ekologiya və meşəçilik | dosent, 1 yer |
| Meliorasiya və hidrotexniki qurğular | dosent, 1 yer |
| | baş müəllim, 1 yer |
| Texniki mexanika və qrafika | baş müəllim, 1 yer |
| Aqrar sahənin iqtisadiyyatı | baş müəllim, 1 yer |
| | assistent, 2 yer |
| Dillər | baş müəllim, 1 yer |
| | müəllim, 1 yer |
| | müəllim, 0,75 yer |
| Energetika | assistent, 1 yer |

Mövcud Əsasnamənin tələblərinə uyğun sənədləri elan qəzetdə dərc olunduğu gündən başlayaraq 30 gün ərzində rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim etmək lazımdır:

**Gəncə şəhəri, Atatürk prospekti 450, ADAU, tel.: 256-00-56, 256-89-57.**

**REKTORLUQ.**

## KOTİROVKA SORĞUSU

Azərbaycan Tibb Universiteti "Dövlət Satınalamaları haqqında" Azərbaycan Respublikası Qanununun 49-cu maddəsinə uyğun olaraq "ATU-nun İnzibati binasında elektrik xətlərinin dəyişdirilməsi və akt zalının işıqlandırılması" işləri üzrə kotirovka sorğusu keçirir.

Satınalmada iştirak etmək istəyənlər 07.05.2018-ci il saat 15.00-dək Azərbaycan Tibb Universitetinin tender komissiyasına müraciət edə bilərlər.

Təkliflər 08.05.2018-ci il saat 11.00-da Azərbaycan Tibb Universitetinin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri təkliflərin açılışında iştirak edə bilərlər.

**Ünvan:** *Bakı şəhəri, Ənvər Qasımzadə 14, əlaqə telefonu: 597-42-60*

**Əlaqələndirici şəxs:** *Əhmədov Tağı Rəşid oğlu*

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"AzerGold" QSC tərəfindən "Nəcib metal külçələrinin inkassasiyası (daşınması) və çatdırılması xidmətinin satın alınması" ilə bağlı 13 yanvar 2018-ci il tarixində elan edilmiş açıq tender üzrə yetərsay təmin edilmədiyi üçün növbəti dəfə ilkin sənədlərin qəbulu tarixi 14 may 2018-ci il saat 15.00-dək, tenderə kommersiya təklifinin və təkliflərin təminatı sənədlərinin qəbulu isə 22 may 2018-ci il 15.00-dək uzadılır. Sənədlər möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla təqdim olunmalıdır. Tender üzrə təklif zərflərinin açılışı 23 may 2018-ci il tarixində saat 15.00-da Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir.

**Əlaqələndirici şəxs:** Rafiq Abdullayev

**Tel.:** *012-505-02-02*

**Ünvan:** *"AzerGold" QSC, Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H.*

**"Azərbaycan Sənaye Korporasiyası" ASC tərəfindən Balakən rayonunda tütün istehsalı və emalı məntəqəsinin tikintisi işlərinin satınalınması ilə bağlı 17.04.2018-ci il tarixində elan edilmiş təkliflər sorğusunda zərflərin açılış tarixi iş həcmlərində dəyişiklik edilməsi səbəbindən 30.04.2018-ci il tarixi saat 12:00-dan, 04.05.2018-ci il saat 12:00 tarixinə dəyişmişdir. Təkliflərin son qəbul tarixi 04.05.2018-ci il, saat 11:00-a kimidir. Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 40C, tel.: (+994 12) 505-95-11.**

## BİLDİRİŞ

Masallı Regional Mədəniyyət və Turizm İdarəsinə 2018-ci ildə Digər maşın və avadanlıqlar, yumşaq inventarların İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin 19 mart 2018-ci il tarixli 2216 p saylı və 19 mart 2018-ci il tarixli 2217 p saylı qeydə alınmış satınalınma məktubu üzrə kotirovka sorğuları ləğv olunur.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"Respublika" qəzetinin 26 aprel 2018-ci il tarixli sayında Azərbaycan Respublikası Dövlət Rəssamlıq Akademiyasının dərc olunmuş kotirovka sorğusu elanı ləğv olunduğunu elan edir.

**Tender Komissiyası.**

## Cəlilabad Rayon İcra Hakimiyyəti

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Dəftərxana ləvazimatlarının satınalınması
**2.** Cari təmir işlərinin görülməsi
**3.** Ehtiyat hissələrinin satınalınması
**4.** İnventarların satınalınması
**5.** Digər maşın və avadanlıqların satınalınması.

**Ünvan:** *Cəlilabad şəhəri, Heydər Əliyev prospekti 12.*

Sənədlər 7 may 2018-ci il saat 12:00-a kimi qəbul olunur.

**Tender Komissiyası.**

## Gədəbəy RİH-nin Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi 2018-ci il

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** 282210 maddəsi üzrə: Kommunal mənzillərin təmiri.

Kotirovka sorğusunda iştirak etmək istəyənlər 05 may 2018-ci il tarixə kimi kotirovka komissiyasına təqdim edə bilərlər.

Sənədlər Gədəbəy şəhəri, M.Ə.Rəsulzadə küçəsi 47 ünvanda qəbul olunur.

**Əlaqə telefonu:** *32-6-01-53.*

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Gəncə Şəhər Səhiyyə İdarəsi

## BİLDİRİŞ

2018-ci ildə avadanlığın, inventarların, yumşaq inventarların, digər maşın və avadanlığın və əsaslı təmir işlərinin görülməsinin satınalınması ilə əlaqədar açıq tenderin keçirilməsi haqqında elanda tender təkliflərinin təqdim olunmasının son tarixi 17 aprel 2018-ci il tarixdən 20 aprel 2018-ci il saat 17:00 tarixə keçirilib, təklif zərflərinin açılış vaxtı 18 aprel 2018-ci il tarixdən 21 aprel 2018-ci il tarixinə keçirilib.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti pambığın becərilməsində istifadə olunan traktorlar üçün 14000 litr mühərrik yağı, 1000 litr hidravlika yağı və 400 litr transmissiya yağının satınalınması məqsədi ilə kotirovka sorğusu keçirir.

İştirak etmək istəyənlər şərtlər toplusunu aşağıdakı ünvandan ala bilərlər:

**Ünvan:** *Bakı şəhəri, Bakıxanov qəsəbəsi, B.Bünyadov-12.*

**Əlavə məlumat üçün əlaqə telefonu:** *(012) 425-66-94.*

Kotirovka sorğusu üçün bağlı zərflərin qəbulun son tarixi 02.05.2018-ci il saat 17:00.

**Tender Komissiyası.**

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Göygöl Rayon Şöbəsi tərəfindən İsmayılova Daşdəmir Qafar oğlunun adına Göygöl rayonu Toğana kəndində yerləşən 0,09 ha Torpaq sahəsinə dair tərtib edilmiş JN 116 A saylı Torpağın Mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Sumqayıt Dövlət Universiteti kotirovka sorğusu elan edir: 1. Cari təmir; 2. Abadlıq işlərinin görülməsi. Təklifləri 04 may 2018-ci il tarixədək saat 14:00-dan gec olmayaraq, aşağıdakı ünvana təqdim etməlidirlər. Sumqayıt şəhəri, 43-cü məhəllə. Tel/faks: (012) 448-44-56. Tender Komissiyası

Abdullayeva İradə Söydümalı qızının adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən MH 0086096 Çıxarış itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəh., Nərimanov r-nu, Təbriz küç. 98a, mənzil-26).

## ALLAH RƏHMƏT ELƏSİN

**Rövşən Ağayev və Təvəkkül Əliyev Təhsil Nazirliyinin sektor müdiri**
**SÜLHƏDDİN GÖZƏLOVUN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin baş direktoru Rəsul Balayev və mərkəzin kollektivi Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin direktorunun birinci müavini Eldar Kosayevə, anası**
**GÜLSÜM SÜLEYMAN qızı KOSAYEVANIN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru İbrahim Cəfərov və professor-müəllim heyəti Təhsil Nazirliyinin sektor müdiri, tanınmış təhsil işçisi**
**SÜLHƏDDİN GÖZƏLOVUN**
**vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**

TƏKRAR

## Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi 2018-ci il üçün tələb olunan dərman, sarğı ləvazimatları və materiallarının alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

**Tender bir LOT üzrə aparılır:**

**LOT 1. Dərman, sarğı ləvazimatları və materiallarının alınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Az 1114, Bakı şəhəri, Cavadxan küçəsi, məhəllə 32/15 ünvanından ala bilərlər.

**İştirak haqları:**

**LOT 1 - 150 manat**

*Təşkilat: Akademik Z.Əliyeva adına Milli Oftalmologiya Mərkəzi*
*Hesab: AZ66CTRE00000000000004688301*
*VOEN: 1700252051*
*Bank: Dövlət Xəzinədarlıq Agentliyi*
*Kod: 210005*
*VOEN: 1401555071*
*Mühbir hesabı:*
*AZ41NABZ01360100000000003944*
*SWİF: CTREAZ22*
*Büdcə səviyyəsinin kodu: Fond 7*
*Büdcə təsnifatının kodu: 142340*

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün ərizə;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*-tender təklifi qiymətinin 1 faizi həcmində bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-İddiaçının son bir il ərzində fəalyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-İddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-İddiaçının analoji işlər üzrə təcrübəsi və potensial imkanları barədə məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 22 may 2018-ci il saat 16:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 31 may 2018-ci il saat 16:00-a qədər Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə (ünvan: Az 1114, Bakı şəhəri, Cavadxan küçəsi, məhəllə 32/15) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 01 iyun 2018-ci il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Əlaqələndirici şəxs: Əliyev Sirac Ağabala oğlu**
**Telefon: 012-569-09-45, 012-569-09-75**
**Ünvan: Az 1114, Bakı şəhəri, Cavadxan küçəsi, məhəllə 32/15.**

## Zərdab Rayon Mərkəzi Xəstəxanası

## AÇIQ TENDER ELAN EDİR

**Tender 3 (üç) lot üzrə keçirilir.**

**LOT-1.** Bərk inventar
**LOT-2.** Avadanlıq
**LOT-3.** Digər maşın və avadanlıq.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş və imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər lot üzrə 100 (yüz) manat məbləğdə iştirak haqqını aşağıdakı göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tender əsas şərtlər toplusunu Zərdab rayonu, Azərbaycan küçəsi N-49 ünvanından ala bilərlər.

**Əlaqələndirici şəxs:** *Teymurova Xavər Nuru qızı*

**Tel.:** *(050) 785-86-96*
*"Kapital Bank" ASC*
*Kod: 20468*
*VÖEN: 9900003611*
*M/H: AZ37NABZ01350100000000001944*
*Zərdab YXO*
*H/H: AZ8AİİB32051019444600201146*
*VÖEN: 5300060531*
*SWİFT BİK AİİBAZ 2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün ərizə;*
*-tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
*-iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları, işlərin yerinə yetirilməsi üçün analoji işlərdə təcrübəsi;*
*-iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 7 iyun 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 20 iyun 2018-ci il saat 17:00-dək təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. Təkliflər 21 iyun 2018-ci il saat 12:00-da qeyd olunan ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-95-51;
Humanitar siyasət redaksiyası: 539-26-18;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 539-26-18;
Reklam və elan xidməti: 441-20-23.



● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Ataş CƏBRAYILOV

● Çapa imzalanmışdır
27.04.2018